Günəş Şərqdən doğur!

№ 9 (5290), 2021-ci il

# ŞƏRQ

Qiyməti 40 qəpik

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az    16 yanvar 2021-ci il (şənbə)




## Yoluxma sayı da düşür, ölü sayı da...

Azərbaycanda bir gündə 494 nəfər koronavirusdan sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 349 yeni yoluxma faktı qeydə alınıb, 494 nəfər müalicə olunaraq sağalıb.

(Səh.9)

## Monitorinq mərkəzi Ağdam rayonunda yerləşəcək

Mərkəzdə 60 Rusiya və 60 Türkiyə hərbçisi xidmət edəcək



Qarabağda atəşkəsə əməl olunması üzrə ortaq monitorinq mərkəzində 60 Rusiya və 60 Türkiyə hərbçisi xidmət edəcək.

(Səh.7)

### Günün içindən...



## "Qarabağa səfərlərə Azərbaycan icazə verməlidir"

Cavuşoğlu Rusiya Federasiyasını Qarabağdakı sülhməramlıların statusunu müəyyənləşdirməyə çağırıb

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycanın Qarabağ bölgəsində yerləşdirilən rusiyalı sülhməramlıların fəaliyyətinə münasibət bildirib.

(Səh.3)

## XİN başçılarının telefon danışığı baş tutub

Ceyhun Bayramov və Lavrov 11 yanvar bəyanatını müzakirə ediblər



(Səh.6)

## 300 manatdan 500 manatadək cəriməsi var



Hərbi geyimi qanunsuz daşıyanlara qarşı tədbirlər görülür

(Səh.13)

# Prezident Şuşada...

## İlham Əliyev: "Mən bu şəhərə Qələbə yolu ilə gəlmişəm"







## "Bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü"

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Azərbaycanın Şuşa şəhərinə səfər ediblər. Dövlət başçısı Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, daha sonra Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində olub. Ölkə rəhbəri və Birinci xanım Şuşa Rayon İcra Hakimiyyətinin binası ilə tanış olublar. Dövlət başçısı və ailə üzvləri Şuşada Natəvan bulağı, Bülbülün ev muzeyinə də baş çəkiblər.

(səh.2)

## Gələn həftənin əvvəli vaksinasiyaya başlanılacaq

Azərbaycan Türkiyə ilə eyni vaksinləri alır

(səh.3)



## "Şuşa yazılan yerdən hücuma keçdik"

"Bu gün, sabah ölərəm deyib, irəliləyirdik. Vətən uğrunda canımızdan keçməyi seçmişdik"

(səh.8)

## Pandemiyadan sonra dünyanı gözləyən təhlükə

Ürək-damar xəstəliklərinin artacaq

(səh.14)



# Prezident Şuşada...

## İlham Əliyev: “Mən bu şəhərə Qələbə yolu ilə gəlmişəm”

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Azərbaycanın Şuşa şəhərinə səfər ediblər. Dövlət başçısı Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, daha sonra Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində olub. Ölkə rəhbəri və Birinci xanım Şuşa Rayon İcra Hakimiyyətinin binası ilə tanış olublar. Dövlət başçısı və ailə üzvləri Şuşada Natəvan bulağı, Bülbülün ev muzeyinə də baş çəkiblər. Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırıb və hərbçilər qarşısında çıxış edib.





## “Bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü”

**Prezident qeyd edib ki, Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirdi:** ”Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıb, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb. Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan təmizləyiblər”.

**“Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq”**

**Ölkə başçısı qeyd edib ki, Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq:** ”Vaqif Poeziya Günləri bərpa ediləcək. Mən artıq göstəriş vermişəm, bu il keçiriləcək. ”Xarı bülbül” festivalı bu il keçiriləcək. Artıq Şuşanın bərpasını başlayırıq. İndi baş plan hazırlanır. Bütün binaların təftişi aparılıb. Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcək. Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”.

**“Parlament” də gorbagor oldu, status da gorbagor oldu, cəhənnəmə getdi”**

**Dövlət başçısı qeyd edib ki, ermənilər qondarma ”Dağlıq Qarabağ respublikası”nın ”parlamentini” Şuşa şəhərinə köçürəcəkdilər:** ”Şuşa şəhərini erməniləşdirmək üçün növbəti dəfə cəhd edildi. Artıq inşaata da başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovduq və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi. ”Parlament” də gorbagor oldu, status da gorbagor oldu, cəhənnəmə getdi. Qarabağ Azərbaycandır!”.

**“Şuşanı onların ordusunun əlindən biz geri almışıq”**

**Prezident vurğulayıb ki, bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü. Heç kim bu dəmir yumruğu unutmasın:** ”Erməni vandalları bizim bütün şəhərlərimizi yerlə-yeksan etdilər. İndi azad edilmiş torpaqlarda olarkən bunu öz gözümlə görürəm və bütün dünya görməlidir. Məscidlərimizi, qəbirlərimizi, tarixi abidələrimizi, bütün binalarımızı yerlə bir ediblər. Bu məqbərəni də yadelli düşmənlər dağıdıblar. Məqbərənin bu hissəsində naxışlar var idi, indi tarixi şəkillər var, hamısı sökülüb talan edilib, məqbərə dağıdılıb. Onların ürəyində nə qədər düşmənçilik hissi olmalı idi ki, bax, bu vəhşiliyi törətsinlər”.

Prezident deyib ki, Şuşanı onların ordusunun əlindən biz geri almışıq, qəhrəmanlıq göstərərək, sıldırım qayalardan qalxaraq, yüngül silahlarla, bıçaqlarla məhv etdik onların ordusunu: ”Harada idilər onlar? Qaçıb gizlənmişdilər İrəvanda. Biri burnunu soxmuşdu buraya. Amma beş gündən sonra dovşan kimi buradan qaçdı. O birisi, ümumiyyətlə, heç səsini çıxarmırdı. Üçüncüsü də var, müharibə cinayətkarı - Ohanyan, özü də burada doğulub, bizim torpağımızda. Müharibə dövründə guya Şuşanı müdafiə etməyə gəlmişdi. İti qovan kimi qovduq onu. İndi yenə sülənir Ermənistanda. Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın.

Yoxsa ordu qurub torpaqları geri alacaq? Gəlin, alın. Gəlin bura, siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik”.

**“Şuşanı Cıdır düzüsüz, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil”**

**Ölkə başçısı bəyan edib ki, Şuşanı Cıdır düzüsüz, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil:** ”Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq. Bir müddət bundan əvvəl işğalçı qüvvələr bizim üçün müqəddəs olan bu yerdə heysiyyətimizə toxunmaq, Azərbaycan xalqını təhqir etmək üçün eybəcər hərəkətlər etmişlər, ”Yallı” getmişlər. İzi-tozu da qalmayıb burada, rədd etmişik. İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi”.

**“17 il ərzində yetişən insanlar bu torpaqları azad etdi”**

**Prezident deyib ki, on yeddi ildir Azərbaycanın rəhbəridir. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad edib:** ”Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi. Gənc nəsil, yaşlı nəsil, təcrübəli insanlar, bütün xalqımız, bütün etnik qrupların nümayəndələri, bütün dinlərin nümayəndələri bir yumruqtək birləşib. Qələbəmizin rəmzi təsadüfən yumruq seçilməyib”.

**”Demişdim ki, büstləri Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq, öz yerlərində də qoyduq”**

**Ölkə rəhbəri bildirib ki, Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin - Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirib:** ”Bu yerdə Şuşa Mədəniyyət Mərkəzi, Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini güllələbaran edib. Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açıb. 1982-ci ilin yay aylarında. Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən.

**“Məscidləri dağıdanla müsəlman ölkələrinin liderləri necə dost ola bilərlər?”**

**Prezident Saatlı məscidini ziyarət etdiklərini, Məkkədən gətirilmiş ”Qurani-Şərif”in Saatlı məscidinə hədiyyə verdiyini deyib:** ”Düşmən bizim azad edilmiş torpaqlardakı bütün abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik. Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz. Bu, riyakarlıqdır və Ermənistanı dost ölkə kimi qəbul etmək də riyakarlıqdır, Allahsızlıqdır. Bunu dağıdanla müsəlman ölkələrinin liderləri necə dost ola bilərlər? Cavab versinlər buna. Mənə yox, öz xalqlarına cavab versinlər. Məscidləri dağıdan, oraya inək salan müsəlman ölkələri ilə dost ola bilər? Qoy onların xalqları buna cavab versinlər”.

**“Əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək”**

**Dövlət başçısı bildirib ki, bundan sonra biz Şuşanı göz bəbəyi kimi qorumalıyıq:** ”Bizim hərbçilərimiz, bizim qəhrəman övladlarımız Şuşanı qoruyacaqlar ki, düşmən heç bu tərəfə baxmağa özündə cəsarət tapmasın. Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər”.

**“Ermənilərə elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar”**

**Prezident vurğulayıb ki, ermənilərə elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar:** ”Əminəm ki, Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaq. Artıq məndə məlumat var ki, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edirlər. Çünki 44 günlük müharibənin hər bir günü qələbə, zəfər günüdür. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi”.

**İsmayıl**

# Gələn həftənin əvvəli vaksinasiyaya başlanılacaq



## Azərbaycan Türkiyə ilə eyni vaksinləri alır

**Azərbaycanda vaksinasiyanın başlayacağı tarix açıqlanıb. Bu barədə Nazirlər Kabinetinin Mətbuat Xidmətinin rəhbəri İbrahim Məmmədov TRT Avaz-a müsahibəsində deyib. O bildirib ki, yələn həftənin əvvəli Azərbaycanda vaksinasiyaya başlanılacaq:**

"Həm Türkiyə, həm də Azərbaycan Çin istehsalı peyvənd alıb. Azərbaycan Türkiyə ilə eyni vaksinləri alır. Bütün məsələlərdə olduğu kimi, bu məsələdə də Azərbaycan Türkiyə ilə həmrəylik nümayiş etdirdi".

İ.Məmmədov bildirib ki, sərtləşdirilmiş karantin rejiminin yumşaldılıb-yumşaldılmaması barədə isə məlumatı yoxdur.

"Vaksinlər təlim kursu keçmiş tibb işçiləri tərəfindən ediləcək. Peyvənd ediləcək poliklinikalarda tibb işçiləri seçilərək xüsusi kurslara cəlb olunub. Burada əsas məqsəd tələb olunan əhaliyə uyğun sayda tibb personalının olmasıdır".

### Səhiyyə Nazirliyi: Vaksinasiya xüsusi ayrılmış peyvənd otaqlarında həkim nəzarəti altında ediləcək

Bunu isə Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən COVID-19-la mübarizə işçi qrupunun üzvü Aris Rüstəmov poliklinikalardakı peyvənd otaqları barədə danişarkən deyib. O bildirib ki, vaksinasiya ilə bağlı poliklinikaya müraciət edən vətəndaşlar üçün bütün şərait və rahatlıq düşünülüb: "Poliklinikaya daxil olduğumuz zaman xüsusi işarələr bizi birbaşa peyvənd olunacaq sahəyə yönləndirir. Peyvəndlər xüsusi ayrılmış peyvənd otaqlarında həkim nəzarəti altında ediləcək. Bu otaqların sayı qeydiyyat otağı, vaksinasiya otağı və müşahidə otağı olaraq bölünüb. İlk olaraq müraciət edən vətəndaş qeydiyyat otağında qeydiyyata alınır. Daha sonra vaksinasiya otağına ötürülür. (apa) Peyvəndlənmə olunduqdan sonra 30 dəq ərzində vətəndaş müşahidə otağında yarana biləcək hər hansı bir əks təsirlə əlaqəli olaraq izlənməyə alınır. Bu müddət ərzində heç bir əlamət üzə çıxmazsa vətəndaş evə buraxılır".

**A.Rüstəmov qeyd edib ki, peyvəndlənmə yalnız həkim yoxlanışı və göstərişi ilə ediləcək:** "Bu səbəbdən vaksinasiyadan öncə müvafiq olaraq sahə həkiminin yoxlanışından keçmək mütləqdir. Bir xüsusi məsələdə peyvəndlərin doğru saxlanılmasıdır. Bunun üçün vaksinasiya həyata keçiriləcək bütün tibb məntəqələri soyuducular və termoçantalarla təmin edilib".

## "Qarabağa səfərlərə Azərbaycan icazə verməlidir"

### Cavuşoğlu Rusiya Federasiyasını Qarabağdakı sülhməramlıların statusunu müəyyənləşdirməyə çağırıb



**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycanın Qarabağ bölgəsində yerləşdirilən rusiyalı sülhməramlıların fəaliyyətinə münasibət bildirib.**

"Report" xəbər verir ki, o, Pakistandan qayıdarkən jurnalistlərin məsələ ilə bağlı sualını cavablandırıb. Çavuşoğlu qeyd edib ki, məsələni Rusiya rəhbərliyi ilə müzakirə ediblər: **"Siz sülhməramlı olaraq oradasınız. Kimin gəlib-getdiyi məsələsində qərar vermənin məsuliyyəti sizdə deyil" dedik".** Onun sözlərinə görə, sülhməramlıların sayı ilə bağlı Azərbaycan Türkiyəyə hər hansısa narazılığını bildirməyib:

"Bu məsələ ilə bağlı Azərbaycandan şikayət gəlməyib. Əsas məsələ Rusiyanın Laçın dəhlizindən istifadəyə icazə verilməsindəki roludur. O da bunun üçün Azərbaycandan icazə almalıdır. Qarabağ Azərbaycan torpağıdır. Sabah hər hansısa bir status-kvo müəyyən edilsə də, yenə də Azərbaycanın sərhədləri çərçivəsində olacaq. Bu səbəbdən Azərbaycandan icazəsiz bunları etməməsi lazımdır".

*Nazir həmçinin deyib ki, Türkiyə Qarabağdakı Rusiya sülhməramlılarının statusu ilə əlaqədar razılaşma imzalamağa Rusiyanı təşviq edir.* "Gələcəkdə ehtiyac olarsa, Azərbaycan ilə ikitərəfli razılaşma əldə edərək lazımi dəstəyi hər zaman verə bilərik", - o vurğulayıb.

# Hər şey Qarabağın tanıdılmasına xidmət edir



## Dünyanın hava marşrutunda yer almaq, xəritədə əks olunmaq deməkdir

### "Füzuli beynəlxalq hava limanı iqtisadi yox, siyasi-ideoloji baxımdan çox önəmlidir"

Prezident İlham Əliyev Şuşa şəhərinə səfəri çərçivəsində Füzuli beynəlxalq hava limanının təməlqoyma mərasimində iştirak edib. Dövlət başçısı vurğulayıb ki, beynəlxalq hava limanı bu il ərzində istifadəyə verilməlidir ki, xarici vətəndaşlar və xaricdə yaşayan azərbaycanlılar Qarabağa, Şuşaya rahat şəkildə gələ bilsinlər. Ölkə rəhbəri hava limanından beynəlxalq uçuşların təşkil edilməsi istiqamətində işlərə tezliklə başlanmasına da göstəriş verib.

**Prezidentin Füzuli beynəlxalq hava limanına diqqətlə yanaşmasını "Şərq"ə dəyərləndirən iqtisadçı Fuad İbrahimov bildirib ki, Füzuli beynəlxalq hava limanı iqtisadi yox, siyasi-ideoloji baxımdan çox önəmlidir. Ekspert vurğulayıb ki, ermənilər işğaldan sonra Xocalı hava limanını yararsız vəziyyətə salıb, dağıdıblar:** "Xankəndidəki aeroportu bərpa edərək beynəlxalq uçuşlara hazır vəziyyətə gətirmişdilər. Ancaq Azərbaycan rəhbərliyinin siyasi iradəsi nəticəsində ermənilərin çirkin niyyəti baş tutmadı. O baxımdan Qarabağda, konkret Füzulidə inşa ediləcək beynəlxalq hava limanı böyük önəm daşıyır. Əlbəttə, iqtisadi baxımdan indiki məqamda əlverişli olmaya bilər. Amma ideoloji cəhətdən faydalı və zərurətdir. Qarabağda beynəlxalq aeroportun tikilməsi və istifadəyə verilməsi dünyanın hava marşrutunda yer almaq, xəritədə əks olunmaq deməkdir. Bu isə Qarabağın tanıdılmasına xidmət edir. Hava limanı xarici ölkə vətəndaşlarının, turistlərin ən tez zamanda işğaldan azad edilmiş ərazilərə səfəri və erməni vəhşiliyini, düşmənin burada törətdiyi vandalizmi öz gözləri ilə görməsinə yardımçı olacaq. Həm də əcnəbilər hava limanları ilə bağlı axtarış verdikləri zaman qarşılarına Azərbaycanın Füzuli şəhəri, dolayısı ilə Qarabağ və Şuşa çıxacaq.

Qısa zamanda beynəlxalq hava limanının tikilib istifadəyə verilməsinin özü belə kiçik bir ölkə üçün baş ucalığı və diqqət çəkən məqamdır".

**İsmayıl Qocayev**

# Həbs olunmalıdırlar



## Zahid Oruc: "Qanunsuz səfər edən erməni rəsmilərinə diversantlar kimi yanaşılmalıdır"

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) bölgəyə qanunsuz səfərlərlə bağlı Ermənistana son xəbərdarlığını edib. Qurumdan bildirilib ki, Ermənistanın dövlət rəsmilərinin Azərbaycanın ərazilərinə qanunsuz səfərləri qəbuledilməzdir:

"Rəsmi Bakının icazəsi olmadan Ermənistan xarici işlər naziri bir daha Azərbaycan ərazilərinə səfər edəcəyi təqdirdə, bu, Ermənistan tərəfinə baha başa gələ bilər. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusu ilə bağlı Ermənistan xarici işlər nazirinin əsassız iddiasına gəldikdə isə Prezident İlham Əliyevin status məsələsini tarixin zibilliyinə göndərdiyini Ermənistan rəsmilərinə xatırlatmaq istərdik".

**Mövcud durumu "Şərq"ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc bildirib ki, Azərbaycan XİN-in verdiyi açıqlama yerində və düzgündür:** "Bir müddət öncə Ermənistan Xarici işlər naziri Ara Ayvazyan Qarabağa qanunsuz səfər etmişdi. Azərbaycanın sərt etirazı barədə qarşı tərəfin verdiyi reaksiya hüquqi əsaslara dayanmır.

Bu reaksiya vətən müharibəsindəki məğlubiyyətin nəticələrinin yaratdığı şokla əlaqədardır. 10 noyabr 2020-ci ildə bütün dünyanın gözü qarşısında Azərbaycan və Rusiya rəhbərinin üçtərəfli sənədi imzaladığının şahidi olduq.

Lakin Ermənistanın baş naziri qeyri-məlum yerdə və durumda bu sənədi imzalayıbsa, avtomatik olaraq Qarabağla bağlı məsələlərin tam təyinatı hər kəsə bəlli oldu.

Bu baxımdan ermənilərin özünü müdafiə üçün gətirdiyi arqumentlər işlək deyil. Azərbaycan Prezidenti Moskva görüşündə siyasi iradəsini ortaya qoyaraq üçtərəfli razılaşmadan sonra ermənilərin bölgəyə silahlı qüvvələr göndərməsi və ələ keçən separatçıların hərbi əsirlər kimi təqdim edilməməsini qeyd etdi. Belə olan təqdirdə erməni rəsmilərinə də diversant kimi həbs edilən şəxslərlə eyni yanaşma tətbiq edilməlidir".

**Z.Orucun sözlərinə görə, ölkəmiz haqlı olaraq Ermənistana beynəlxalq qanunların tələblərini icra etməli olduğunu xatırladır:**

"Hansı statusda olmalarından asılı olmayaraq Azərbaycan ərazilərinə qanunsuz səfər edən erməni rəsmiləri mütləq həbs olunmalıdır. Tarixən İrəvan və Zəngəzurda yaşamışıq. Lakin bütün normaları heçə sayıb İrəvana getsək, hansı reaksiya ilə üz-üzə qalarıq? Bəllidir ki, erməni tərəfi olduqca sərt addımlar atacaq.

Azərbaycan XİN Qarabağa qanunsuz səfərlərlə bağlı yerində xəbərdarlıq edib. Qarşı tərəf bu xəbərdarlıq ilə hesablaşmağa məcbur olacaq".

**Yeganə Bayramova**

# “Sizin kimi rəhbərimiz və düşmənə qan udduran Ordumuz var”

## Prezidentə yazırlar: “Sayənizdə xalqımız gələcəyi inamla qarşılayacaq, övladlarımıza və nəvələrimizə işıqlı sabahlar quracağıq”

**Azərbaycan və Türkiyə vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. Həmin məktubların bəzilərini təqdim edirik:**

**Amerika Birləşmiş Ştatları, Nyu-York şəhəri Aydan Aslanova:** Hörmətli cənab Prezident, mənim adım Aydan Məlik Aslanovadır, Nyu-York şəhərində yaşayıram. Doğma Qarabağ torpaqlarımızı, xüsusilə Tuğ kəndini düşmən tapdağından azad etdiyiniz üçün, xalqımızın 30 illik həsrətinə son qoyduğunuz üçün Sizə sonsuz təşəkkürlərimi bildirirəm. Çox sağ olun! Mən və ailəm Sizə çox minnətdarıq. Sizə qüdrətli Azərbaycanımızın inkişafı naminə qarşıdakı yorulmaz fəaliyyətinizdə möhkəm cansağlığı və böyük uğurlar arzulayırıq.

**Türkiyə Respublikası, İstanbul şəhərindən Səid Yılmaz Acar:** Hörmətli Prezident İlham Əliyev, Sizi və bütün Azərbaycan xalqını Qarabağ Zəfəri münasibətilə ürəkdən təbrik edir, Sizə yeni-yeni nailiyyətlər arzulayıram. Bütün dualarım Sizinlədir. Uca Yaradan Sizi, xalqınızı qorusun!



**Naftalan şəhərindən Xəyalə Aslanova:** Müzəffər Ali Baş Komandan! Bu şanlı Qələbəni xalqımıza yaşatdığınız üçün Sizə və qəhrəman Ordumuza dərin təşəkkürümü bildirirəm. Allaha çox şükürlər olsun ki, Sizin kimi rəhbərimiz və düşmənə qan udduran Ordumuz var. Sayənizdə xalqımız gələcəyi inamla qarşılayacaq, övladlarımıza və nəvələrimizə işıqlı sabahlar quracağıq. Bu imkanları Siz bizə yaşatdınız, cənab Prezident. Azərbaycan xalqı, o cümlədən bütün naftalanlılar Sizə - öz liderinə inanır, etibar edir və Sizinlə qürur duyur. Siz bu şərəfə, bu qürura layiqsiniz. Ulu Tanrı Sizi Azərbaycan xalqının başının üstündən əskik etməsin.

**Goranboy rayonu, Fəxralı kənd sakinindən Cavid Yusifov:** Hörmətli Prezidentimiz. Mən və mənim ailə üzvlərim bizə bəxş etdiyiniz böyük qələbənin sevinci ilə yaşayır, qürurlanırıq. Bu misilsiz qələbə ilə tarixi salnaməmizə böyük bir imza atdınız, xalqımız üçün xoşbəxt həyata və gələcək inkişafa uğurlu yol açdınız. 44 günlük ağır müharibə şəraitində Sizin müdrik və uzaqgörən daxili və xarici siyasətiniz sayəsində ölkə iqtisadiyyatı büdrəmədi, ölkə daxili ən əhəmiyyətli infrastruktur layihələri, quruculuq tədbirləri, insanların maddi və mənəvi tələbatları diqqət mərkəzində oldu. Siz Ulu Öndər Heydər Əliyevin vəsiyyətlərini layiqincə yerinə yetirdiniz. Siz dünya siyasətində, diplomatiyada ən yüksək şəxsiyyət zirvəsinə yüksəldiniz. Siz Vətən müharibəsi döyüşlərinin ən böyük sərkərdəsi, Milli Qəhrəmanı oldunuz. Böyük qələbə və müzəffər yüksəlişiniz məni və ailə üzvlərimi, kənd sakinlərimizi sevindirir. Allah Sizi qorusun.

**Qobustan rayonu, Cəyirli kəndindən Ruslan İsmayılov:** Əziz Prezidentim. Mən Sizə şəxsən öz təşəkkürümü və minnətdarlığımı bildirirəm. Çünki mənim həyatımda aldığım ən sevindirici xəbər Sizin ”Şuşa azaddır” deyərək bizi təbrik etməniz oldu. Müzəffər Ali Baş Komandanım, mən indi 6-cı sinifdə oxuyuram. Böyüyəndə hərbi mütəxəssis olmaq istəyirəm, yeni və güclü silahlar düzəldərək Ordumuzun gücünə güc qatacağam. Azərbaycan xalqına sadiq bir əsgər olacağıma söz verirəm.

Qürurumuz, fəxrimiz, çox hörmətli, dəyərli, Müzəffər Ali Baş Komandanımız, cənab Prezidentimiz.

Sizi Qarabağımızın azad olunması münasibətilə təbrik edirəm. Çox şükür ki, Siz bizə bu sevinci yaşatdınız, bizə bu xoşbəxtliyi bəxş etdiniz. Bizim sevincimizin həddi-hüdudu yoxdur. Sizə öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

**Astara şəhərindən Nuran Cəbrayılova:** Cənab Prezident, mən və ailəm bir Azərbaycan vətəndaşı kimi həmişə Sizin yanınızda olmuşuq, Sizə dəstək olmuşuq və həmişə də yanınızdayıq. Siz bütün dünyanı qarşınıza aldınız - xalq üçün, Vətən naminə. Bütün dünya bir daha Sizin liderliyinizin şahidi oldu. Uca Yaradan Sizi qorusun. Allah Sizə kömək olsun. İnanın ki, Sizin bu xalq üçün, Vətən üçün etdiklərinizin qarşısında nə desəm azdır. Müzəffər Ali Baş Komandan, Sizinlə fəxr edirik. Nə yaxşı ki, Sizin kimi Prezidentimiz var. Allah Sizi başımızın üstündən əskik etməsin. Allah dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevə və ananız - gözəl insan Zərifə xanım Əliyevaya qəni-qəni rəhmət eləsin. Allah Mehriban xanımı başımızın üstündən əskik etməsin. Gözəl qəlbli, xeyirxah insan, səmimi, zərif xanım, vətənpərvər, xalqını sevən, xalqın qayğısına qalan Mehriban xanımla fəxr edirik.

**Aynurə Pənahqızı**

# ANAMA ləğv edildi, əvəzində yeni agentlik yaradıldı



**Prezident İlham Əliyev Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında fərman imzalayıb.**

Fərmana əsasən, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əsasında publik hüquqi şəxs statuslu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi yaradılır.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi *(bundan sonra - Agentlik)* Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin hüquqi varisidir, onun hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir.

# Ötən il 7 siyasi partiya dövlət qeydiyyatına alınıb

**Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin videokonfrans formatında geniş kollegiya iclası keçirilib.**

“Report”un məlumatına görə, iclasda dövlət başçısının 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə verdiyi tapşırıqlardan irəli gələn ədliyyə orqanlarının vəzifələri müzakirə olunub.

Nazir qeyd edib ki, ”Mobil notariat”ın funksionallığı artırılaraq, bir sıra etibarnamələrin mobil qaydada verilməsi təmin edilib. Həmçinin, çoxpartiyalı sistemin inkişafına dövlət dəstəyinin təzahürü olaraq 7 siyasi partiya, habelə 145 qeyri-kommersiya qurumu dövlət qeydiyyatına alınıb, 45 mətbu nəşr uçota götürülüb.

# Ali Baş Komandanın Şuşaya səfəri möhtəşəm hadisədir

## Tural Gəncəliyev: “Bu səfər Azərbaycana qarşı çıxan, erməni təfəkkürü ilə yaşayan və düşmənin dəyirmanına su tökən qüvvələrə mesajdır”

Dünən Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Şuşaya səfər ediblər. Ali Baş Komandan illər əvvəl Ulu Öndər Heydər Əliyevlə birlikdə şəkil çəkdirdiyi ərazidə olub. Dövlət başçısı və Birinci vitse-prezident qızları Leyla Əliyeva ilə birlikdə həmin ərazidə şəkil çəkdiriblər. Cənab Prezident və ailəsi Şuşadakı Aşağı Gövhərağa və Yuxarı Gövhərağa məscidləri, Qazançı kilsəsi və erməni vandalizminə məruz qalan Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə də baş çəkiblər.

Ali Baş Komandan üçrəngli bayrağımız qaldırıldıqdan sonra hərbçilərlə söhbətləşib. Ölkə başçısı qeyd edib ki, heç kim bu torpaqları bizə elə-belə verməyib: ”Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın. Belə də oldu və alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq”.



**Tarixi səfərlə bağlı təəssüratlarını ”Şərq”lə bölüşən Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyinin sədri, millət vəkili Tural Gəncəliyev bildirib ki, Ali Baş Komandanın Şuşaya səfəri möhtəşəm bir hadisədir:** ”Cənab Prezidentin qalib bir Sərkərdə kimi Azərbaycanın döyünən ürəyi sayılan Şuşaya səfəri böyük əhəmiyyət kəsb edir. Şuşaya səfər, oradakı tarixi və dini abidələrimizin ziyarəti, şəhərdəki ümumi vəziyyətin öyrənilməsi çox vacibdir. Bu səfər Azərbaycana qarşı çıxan, erməni təfəkkürü ilə yaşayan və düşmənin dəyirmanına su tökən qüvvələrə mesajdır: Şuşa bir daha işğal altına düşməyəcək və hər zaman Azərbaycanın baş tacı olub, belə olmağa davam edəcək. Məlumdur ki, kim Şuşaya nəzarət edirsə, Qarabağa və ətrafdakı digər bölgələrə də nəzarət edir. Bu baxımdan ölkə başçısının məhz Şuşaya səfəri simvolik hadisə kimi tarixə düşdü”.

**T.Gəncəliyev Şuşada doğulub, həyatının 12 ilini orada keçirən biri kimi bu tarixi səfərdən qürur hissi keçirdiyini qeyd edib:**

”Hər zaman başqa ölkələrin paytaxtlarına baxıb onlar haqqında danışırdıq. Artıq buna ehtiyac qalmayacaq. Paris, Viyana və Avropanın zəngin ənənələri olan digər şəhərlər kimi artıq Şuşa da Azərbaycanın mədəni tarixi şəhəri kimi üst səviyyədə olacaq. Ali Baş Komandan bu işə öz enerjisini sərf edirsə, həqiqətən də nəticələr möhtəşəm olacaq. Şuşa Azərbaycanın döyünən ürəyi kimi daim başı uca formada öz mövcudluğunu davam etdirəcək. 30 il ərzində Şuşanın başını qara buludlar almışdı. Simvolumuz olan Xarı Bülbülün başı bükük idi, əvvəlki kimi çiçək açıb, pərvazlana bilmirdi. Lakin cənab Prezidentin bu səfəri bədbin keçmişimizin silinməsi və parlaq gələcəyimizin göstəricisidir. Şuşa əsrarəngiz bir şəhər kimi tarixdə öz sözünü deyəcək”.

**Yeganə Bayramova**

# "Prezidentin Şuşaya səfəri ölmüş ruhlarımıza can verdi"

## Flora Xəlilzadə: "Bu həm də erməni məxluqlarına mesaj oldu ki, biz Şuşanın əbədi sakinləriyik və doğma torpaqlarımıza qayıtdıq"





**"Böyük Ermənistan" yaratmaq xülyasında olan ermənilərin vandalizmi Azərbaycanın tarixi abidələrinə münasibətdə də özünü göstərir. Təkcə Şuşa şəhərində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi dağıdılıb, viran edilib. Artıq Azərbaycan dağıntıya məruz qalmış mədəniyyət nümunələrini bərpa edir.**

Dünən Prezident İlham Əliyevlə Birinci vitse-prezident Mehriban xanım Əliyeva Şuşaya səfər ediblər. Ermənistan Silahlı Qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərkən Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün güllələnmiş etdiyi heykəllər Şuşaya qaytarılıb.

Səfər zamanı "güllələnmiş heykəllər"in açılışı olub. Həmçinin Prezident, birinci xanım və qızları Leyla Əliyeva vaxtilə Molla Pənah Vaqifin büstünün və məqbərəsinin olduğu yerə gəliblər.

**Prezidentin Şuşa səfərini "Şərq"ə dəyərləndirən jurnalist, publisist, yazıçı Flora Xəlilzadə deyib ki, Xan qızı Natəvanın ruhu ağ yaylıqda yollara çıxıb bizi gözləyirdi. Onun sözlərinə görə, bu gün o ruh sakitlik tapıb:** "Mən "Yadigarlar" verilişinin bir buraxılışını Xan qızı Natəvana həsr etmişdim. Onun heykəli qarşısında sanki canlı və güllələnmiş Natəvanla üz-üzə dayandım. Özümü elə almaq istəsəm də, alınmırdı. İnsan nə qədər vəhşi olar?! Onlar insan deyil, heykəli belə atəşə tutublar. Bu gün rahatlıq tapdım ki, o heykəllər öz evlərinə qayıtdı. Elə bil ki, ruhlar da heykəllərlə birlikdə doğma torpağına dönmüş oldu. Ali Baş Komandana çox təşəkkür edirəm! Biz hər şeydən əlimizi üzmüşdük. Lakin ölmüş ümidlərimiz dirildi. Mənim üçün Şuşa çox qiymətlidir, "Ruhumuzun ünvanı Şuşa"adlı kitab da yazmışam".

**F.Xəlilzadə diqqətə çatdırıb ki, Şuşaya geri qayıtmaq bütün düyünlərin açılması, Qərbi Azərbaycanda öz doğma sakinlərinə həsrət qalan yuvaya, Qarabağa dönmək deməkdir:** "Bütöv Azərbaycan qızıl üzükdürsə, Şuşa onun qaşıdır! Bu gün Prezidentin ailə üzvləriylə Şuşaya səfəri ölmüş ruhlarımıza can verdi. Erməni məxluqlarına mesaj oldu ki, biz Şuşanın əbədi sakinləriyik və doğma torpaqlarımıza qayıtdıq. Prezident "Əzizim Şuşa" yox, "Əziz Şuşa" deyir. Çünki Şuşa hamı üçün əzizdir. Son günlərdi çox qeyri-adi hisslər keçiririk. 8 noyabr tarixində sevincdən göz yaşlarımı saxlaya bilmədim. Dəfələrlə söylədim ki, qulağıma yenə təkrarlayın ki, "Şuşa alındı!" *(Bu məqamda müsahibimiz yenə göz yaşlarına hakim ola bilmir).*

**Aygün Tahirqızı**



## "Azad olunmuş qədim şəhərimizdə olmağımdan çox xoşbəxtəm!"

### Birinci vitse-prezident Mehriban Əliyeva Şuşa şəhərindən görüntülər paylaşıb

**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində işğaldan azad olunmuş Şuşa şəhərindən görüntülər paylaşıb.**

**Paylaşımda deyilir:**

"Əziz qardaşlar və bacılar!

Bizim doğma, işğaldan azad olunmuş qədim Şuşa şəhərimizdə olmağımdan çox xoşbəxtəm! Böyük məmnuniyyətlə bu gözəl diyara etdiyimiz səfərimizin görüntülərini sizinlə paylaşıram.

**Dərin hörmət və sevgilərlə,**
**Sizin MEHRİBAN"**

# "Moskva görüşündə heç nə itirmədik"

## Pənah Hüseyn: "Ancaq Rusiya Qarabağ danışıqlarını öz inhisarında saxlamaq istəyir"

Müzəffər Azərbaycan Ordusu 44 günlük Vətən savaşından qalib çıxdı. Sentyabrın 27-də əks-həmlə ilə hücuma keçən ordumuz qısa zamanda düşmənə ağır zərbələr vurdu. 10 noyabr 2020-ci il Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında imzalanan bəyanat əslində tarixi qələbəmizin rəmzi, düşmənin təslim olması idi. Buna rəğmən cəmiyyətimizdə müəyyən narahatlıqlar var. Məlumdur ki, üçtərəfli bəyanata əsasən rus və türkiyəli hərbçilər bölgədə sülhün təmin edilməsini həyata keçirməlidirlər. Lakin işğaldan azad olunan Hadrut qəsəbəsində törədilən silahlı təxribatlardan göründü ki, ruslar bunu yerinə yetirmək istəmirlər.

Bunun ardınca Şuşada və Xankəndidə atəş səslərinin eşidilməsinə dair də xəbərlər yayılmağa başladı. Bütün bunlar Ermənistanın və Rusiya sülməramlılarının üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməməsinə dair iddialara yol açdı. Nəticədə yanvarın 11-də Azərbaycan, Rusiya və Ermənistan başçıları müharibədən sonra ilk dəfə Moskvada üz-üzə gəldilər. 4 saat davam edən görüşdə bəzi məsələlər müzakirə olundu. Müəyyən mətləbərə aydınlıq gətirildi, amma bir sıra suallar hələ də cavabsız qalıb.

**Məsələ ilə bağlı mövcud durumu daha ətraflı təhlil etmək üçün keçmiş baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynlə həmsöhbət olduq.**

**- Sizcə, 44 günlük müharibəni tam qələbə hesab edə bilərikmi?**

- Ordumuz Vətən müharibəsində böyük şücaət göstərdi. Erməni terrorçu dəstələri və Ermənistanın rəsmi hərbi hissələri Qarabağ vilayətinin bəzi yerlərini öz nəzarətlərində saxlayıblar. Bu, 10 noyabrda imzalanan sənəddə də ifşa edilib. Ona görə də qarşıdakı günlərdə həmin əraziləri düşməndən azad etmək və orada qanunsuz hərbi birləşmələri tərksilah etmək lazımdır. Lakin bu, müəyyən zaman tələb edir. Cəmiyyətdə müəyyən narahatlıqlar var. Çünki faktiki olaraq hər şey həmin ərazilərdə başlamışdı. Bir zamanlar həmin ərazilərimizə istinadən 7 rayonumuz da işğal edildi. Ona görə də Azərbaycan cəmiyyəti yenidən həmin ərazilərdə xarici qüvvələrin köməyi ilə yeni bir revanşın başlamasından narahatdır. Buna rəğmən, çox böyük hərbi qələbə qazanmışıq. Düşmən ordusu darmadağın edilib və torpaqlarımız azad edilib. Bu, 1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra tariximizdə ən mühüm hadisədir.

**- Hadrutda törədilən təxribatlar barədə nə düşünürsüz? Rusiya sülhməramlıları bu proseslərə niyə nəzarət etmir?**

- Əlbəttə ki, rus sülhməramlılarının bölgəyə gətirilməsi cəmiyyətimizdə birmənalı qarşılanmayıb. Fikrimcə, bu qərar Azərbaycan hakimiyyəti üçün də o qədər asan olmayıb. Rus sülhməramlıları ermənilərin darmadağın edilmiş hərbi hissələrinin məhv edilməsinin qarşısını aldılar. Faktiki olaraq isə Rusiya hazırda Qarabağdakı ərazilərimizi qüdrəti altına almaq məqsədi güdür. Bu baxımdan cəmiyyətimiz rus sülhməramlılarının fəaliyyətinə birmənalı yanaşmır. Ona görə də narazıdırlar və müəyyən etirazlar var. Bu gün Azərbaycanın siyasi gündəmində Rusiya sülhməramlılarının bölgədən mümkün qədər tez çıxarılması müzakirə edilir.



> **"Ona görə də Türkiyənin Cənubi Qafqaza hüquqi və legitim şəkildə gəlməsinə mane olmağa çalışır"**

**- Bəs, çıxmaları mümkündür?**

- 5 ildən sonra tərəflərdən biri tələb etsə, çıxmalıdır. Üçtərəfli sənədin bəzi maddələri var. Bunların yerinə yetirilməsi pozulursa və sülhməramlılar kənar işlərlə məşğul olacaqsa, terrorçu qüvvələri himayə edəcəksə, erməni əhalisinə Rusiya pasportu verəcəksə, bu məsələ Azərbaycan tərəfindən qaldırıla bilər. Fikrimcə, təxribatlar rus sülhməramlılarının bölgədən çıxarılması ilə nəticələnəcək.

**- Yanvarın 11-də Moskvada baş tutan üçtərəfli görüşdən gözləntiləriniz nədir?**

- Belə görüşlər hələ çox olacaq. Prinsip etibarı ilə nə isə əldə etmədiksə, itirdiklərimiz də olmadı.

**- Bu görüşdə nə üçün Türkiyə masada olmadı və qarşıdakı dönəmlərdə bunun şahidi ola bilərikmi?**

- Əslində səbəb aydındır. Rusiya bu məsələni öz inhisarında saxlamaq istəyir. Ona görə də Türkiyənin Cənubi Qafqaza hüquqi və legitim şəkildə gəlməsinə mane olmağa çalışır. Lakin mənə elə gəlir ki, uzun müddət belə davam etməyəcək. Türkiyə görünməz şəkildə Moskva masasında idi. Türkiyəsiz əldə olunmuş razılıqların hansısa perspektivi şübhə altındadır. Müəyyən addımlar atılır. Artıq Türkiyə xarici işlər nazirinin belə bir açıqlaması oldu ki, Minsk qrupunun bərpa edilməsi gündəmə gələ bilər. Məlumdur ki, Rusiya hazırda bunu istəmir. Güman edirəm ki, hələlik tarixi savaşda diplomatik cəhətdən mövqeyimiz birmənalı olmalıdır. Çünki tam siyasi əsaslarla Rusiyanın olduğu qədər Türkiyənin də danışıqlarda iştirakına nail olmaq lazımdır. Bu, həm Azərbaycanın marağına uyğundur, həm də təhlükəsizliyin təminatı üçün əsas şərtlərdən biridir.

**Söhbətləşdi:**
**Yeganə Bayramova**

# "Keyfiyyətli xəbər istehsalının təmin edilməsinə nail olunacaq"



## Əhməd İsmayılov MEDİA Agentliyinin əsas prioritetlərini açıqlayıb

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.**

**- Əhməd müəllim, Azərbaycan Prezidentinin müvafiq Fərmanı ilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi - MEDİA yaradıldı. Media sahəsində müşahidə edilən yeniliklər nədən irəli gəlir?**

- İlk növbədə, fürsətdən istifadə edərək Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə münasibətilə hər kəsi, o cümlədən bu müharibənin informasiya cəbhəsində uğurla mübarizə aparan media nümayəndələrini təbrik edirəm. Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi informasiya məkanında aparılan mübarizənin əhəmiyyətini bir daha sübut etdi. Cənab Prezidentin dəfələrlə qeyd etdiyi kimi, biz təkcə döyüş meydanında və siyasi müstəvidə deyil, həm də informasiya məkanında qələbə qazandıq. Məhz belə bir tarixi zamanda bu yüksək etimadın göstərilməsi böyük şərəf və eyni zamanda, böyük məsuliyyətdir. Bu inamı doğrultmaq üçün var gücümüzlə çalışacağıq.

Ötən müddət ərzində dövrün tələbləri dəyişmiş, informasiya məkanında yeni reallıqlar meydana gəlmiş, həm media subyektlərinin, həm də jurnalistlərin fəaliyyəti tamamilə yeni məzmun qazanmışdır. Elektron informasiya cəmiyyətinə sürətli keçid, qlobal informasiya məkanında tamamilə fərqli məzmunlu rəqabət mühitinin və fəaliyyət prinsiplərinin formalaşması, o cümlədən müasir dövrün çağırışları media subyektlərinin fəaliyyətində köklü dəyişikliklərə əsas yaratmışdır. Bununla əlaqədar yerli media subyektlərinin rəqabət qabiliyyətinin və keyfiyyət səviyyəsinin artırılması, bu sahədə peşəkar mütəxəssislərin hazırlanması, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, xüsusilə informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi zərurəti meydana gəlmişdir. Məhz bu səbəbdən cənab Prezident tərəfindən "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalandı.

**- "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanda nəzərdə tutulan məsələlərin yerinə yetirilməsi medianın inkişafına necə təsir göstərəcək?**

- Qeyd edilən Fərmanın Azərbaycanda cəmiyyətin hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə duyulan ehtiyacla əlaqədar olduğu şübhəsizdir. Tətbiq olunacaq yeniliklər Azərbaycan mediasının şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılmasına şərait yaradacaq, modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi kimi qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinin, innovativ yanaşmaların tətbiqinə təkan verəcəkdir.

**- Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi öz fəaliyyətini hansı istiqamətlərdə həyata keçirəcək?**

- Medianın İnkişafı Agentliyinin yaradılması ölkədə medianın inkişafının dəstəklənməsi və bu sahədə həyata keçirilən institusional quruculuq prosesinin davam etdirilməsi siyasətinin tərkib hissəsidir.

Nizamnaməyə əsasən Agentlik media subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, habelə kütləvi informasiya istifadəçilərinin media savadlılığının yüksəldilməsi və digər istiqamətlərdə tədbirlər həyata keçirəcəkdir.

Bununla yanaşı, media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, vətəndaş və cəmiyyət üçün ictimai maraq doğuran layihələrin həyata keçirilməsinin təşkili, həmçinin dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi MEDİA Agentliyinin əsas prioritetlərindəndir.

Eyni zamanda, media subyektlərinə müvafiq sahədə normativ hüquqi aktların şərhi və izahı ilə bağlı köməklik göstərmək, bu sahədə dövlət dəstəyinin imkan və mexanizmləri barədə məlumat vermək, inkişaf strategiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, media subyektləri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq, medianın fəaliyyətinə mane olan problemlərin həllinə dair təklifləri dövlət və yerli özünüidarəetmə orqanlarına təqdim etmək də Agentliyin daim diqqətində saxlayacağı məsələlərdəndir.

MEDİA Agentliyi sadalanan çoxşaxəli fəaliyyət istiqamətləri ilə yanaşı, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasına dəstək göstərilməsi istiqamətində tədbirlərin görülməsini də nəzərdə tutur.

**- Media subyektlərinin rəqabət qabiliyyətinin artırılması məqsədilə daha hansı tədbirlərin görülməsi nəzərdə tutulur?**

- Bu gün dünyada media sərhədlərinin silinməsi, elektron informasiya cəmiyyətinə keçid nəticəsində kütləvi informasiyanın yayılma sürətinin kəskin artması, media məkanın dünyaya açılması yerli media subyektlərini aparıcı xarici media subyektləri ilə vahid informasiya mühitində rəqabət aparmaq reallığı ilə qarşı-qarşıya qoymuşdur. Bu vəziyyət beynəlxalq praktikanın dərindən öyrənilməsini, dünyanın qabaqcıl media subyektlərinin fəaliyyət prinsiplərinin araşdırılmasını, bu sahədə təcrübə mübadiləsinin aparılmasını tələb edir. Buna görə də xarici media subyektləri, habelə beynəlxalq təşkilatlarla əməkdaşlığın möhkəmləndirilməsi, qarşılıqlı əlaqələrin genişləndirilməsi istiqamətində zəruri addımların atılması planlaşdırılır.

Bundan sonrakı dövrdə Agentliyin səlahiyyət dairəsinə müvafiq olaraq istər çap mediası, istər onlayn, istərsə də audiovizual media sahəsində daha əhatəli, müasir dövrün çağırışlarına cavab verən, məzmun və forma baxımından yenilənmiş, daha uzunmüddətli hədəflərin əldə olunmasına yönələn layihələrin işlənib hazırlanması və həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə zəruri məlumatlar toplanacaq, ictimai rəyin öyrənilməsi üçün tədbirlər görüləcək və müvafiq təhlillər aparılacaqdır.

Bununla yanaşı, bir məsələyə diqqət çəkmək istərdik ki, onlayn media subyektlərinin fəaliyyətinə dair məsələlər də Agentliyin səlahiyyət dairəsinə daxil edilmiş, onların informasiya məkanındakı rolu nəzərə alınmaqla fəaliyyətlərinin stimullaşdırılması və rəqabət qabiliyyətlərinin artırılması istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Media sahəsində fəaliyyət göstərən subyektlərə, onların redaksiyalarına və jurnalistlərə dair məlumatların sistemləşdirilməsinə, nəticədə yerli media məkanının ümumi xəritəsinin və mənzərəsinin formalaşdırılmasına şərait yaradılması məqsədilə müvafiq informasiya bazasının yaradılması qarşıda duran vəzifələr sırasındadır. Bu yolla keyfiyyətli xəbər istehsalının təmin edilməsinə, bu sahədə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə, həmçinin kütləvi informasiyanın əldə olunması, ötürülməsi, istehsalı və yayımı fəaliyyətində inkişafa nail olunacaq.

# XİN başçılarının telefon danışığı baş tutub

## Ceyhun Bayramov və Lavrov 11 yanvar bəyanatını müzakirə ediblər




**Cari ilin 15 yanvar tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə verilən xəbərə görə, nazirlər 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın icrası ilə bağlı son vəziyyəti, eləcə də 11 yanvar 2021-ci il tarixində Moskvada imzalanmış birgə bəyanatdan irəli gələn məsələlər üzrə fikir mübadiləsi aparıblar.

Tərəflər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məsələləri və qarşılıqlı maraq doğuran digər mövzuları müzakirə ediblər.

# Rusiya, Azərbaycan və Ermənistan arasında birbaşa təmasları alqışlayır

## Rusiya XİN: "Bənzər təşəbbüslər barışıq atmosferinin, qarşılıqlı anlaşma və etimadın formalaşmasına imkan yaradar"




**"Biz Azərbaycan və erməni ziyalıları arasında birbaşa dialoqun təşkilini, eyni zamanda iki ölkə arasında humanitar xarakterli birgə tədbirlərin keçirilməsini hər vəchlə alqışlayırıq".**

APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, bu barədə bu gün Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

Onun sözlərinə görə, bənzər təşəbbüslər barışıq atmosferinin, qarşılıqlı anlaşma və etimadın formalaşmasına imkan yaradar, Azərbaycan və erməni xalqlarının, bütün Cənubi Qafqaz regionunun, həm də Rusiyanın faydasına olar.

Diplomat qeyd edib ki, əgər bu istiqamətdə rəsmi Bakı və İrəvan səmimi addımlar atsalar, Rusiya tərəfi belə humanitar aksiyaları hökmən dəstəkləyəcək.

# İqtisadi Şuranın 2021-ci ildə ilk iclası keçirilib

**Dünən Azərbaycan Respublikasının Baş naziri, İqtisadi Şuranın sədri Əli Əsədovun sədrliyi ilə Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, İclasda sosial-iqtisadi inkişafla bağlı uzunmüddətli strateji hədəflər və cari məsələlərə dair müzakirələr aparılıb.

# Vilayət Eyvazov istintaq və təhqiqat idarəsinə yeni rəis təyin edib



**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə Gəncə Şəhər Baş Polis İdarəsinin İstintaq və təhqiqat idarəsinə yeni rəis təyin edib.**

APA-nın yerli bürosunun məlumatına görə, bu vəzifəyə polis polkovnik-leytenantı Samir Məcidov təyin olunub.

O, daha öncə Daxili İşlər Nazirliyinin Baş İstintaq və Təhqiqat İdarəsində baş müstəntiq vəzifəsində çalışıb.

# “Tək arzumuz o idi ki...

## ...Nəşimiz ana-atamıza gedib çatsın”











### Orxan Ağalı: “Yoldaşlarımdan biri kəlmeyi- şəhadət oxuyurdu, digəri son dəfə dua edirdi, ta ki, qələbə xəbəri gələnə qədər...”

**İkinci Qarabağ müharibəsi iştirakçısı Orxan Ağalı Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən ”Şuşanın azad olunmasına görə” medalı ilə təltif olunub. Könüllü olaraq müharibəyə yollanan Orxan hazırda tərxis olunub. O, keçirdiyi müharibə yolundan qısaca ”Şərq” ə danışıb:**

- Mən əsgərliyimi 2013- cü il aprelin 2- sində bitirmişəm. Müharibə başladığı müddətdə könüllü olaraq hərbi komissarlığa müraciət etdim və sentyabrın 29- u döyüşlərə yollandım. Əvvəl Murov zirvəsində düşmənə qarşı ağır döyüşlərdə iştirak etdim. Düşmən ağır itki verdiyi üçün geri çəkildi və biz lazım olan mövqeyi ələ keçirdik. Döyüş tapşırığını layiqincə yerinə yetirdiyimiz üçün Füzuli istiqamətində döyüşlərə yolandıq. Daha sonra Laçın dəhlizində və Şuşada geri çəkilmədən, yalnız irəli gedərək düşmənə ağır zərbələr endirərək mövqeyimizi davam etdirdik. Normaldır ki, ölümlə üz-üzə idik. Artıq şəhid olacağımızı qəbul etmişdik. 4 gün ac qaldığımız da olub. Ancaq təslim olmurduq. Olub ki, düşmən ilə burunburuna qalmışıq. Yoldaşımlarımdan biri kəlmeyi-şəhadət oxuyurdu, digəri son dəfə Allaha dua edirdi, ta ki, qələbə xəbərini alana qədər...Şəhid olmaqdan qorxmurduq. Tək arzumuz o idi ki, nəşimiz ana-atamıza gedib çatsın. Ad, soyad, ata adı və nömrəmizi kağıza yazıb onu güllə keçirməyən boyunbağıya qoymuşduq ki, şəhid olsaq belə bilsinlər ki, kimik. Amma bu o demək deyil ki, artıq mübarizə aparmırdıq. Xeyr. Şəhid olacağını bilən əsgər daha cəsarətli və qorxmaz olur. Çünki artıq itirəcəyi heç bir şey yoxdur, əksinə, qazanacağı zirvə - şəhidlik zirvəsi var. Ali Baş Komandanın əmrinə əsasən 10 noyabr 2020-ci il ermənilərin ağ bayraq qaldırması nəticəsində döyüşə son verdik. Bizə bu xəbəri çatdıranda təsəvvür belə edə bilməzsiniz bizim hisslərimizi. Əsgər yoldaşım gəlib ”Biz qazandıq, qalib olduq, artıq müharibə bitdi” dedi. Şəhid olmağa hazır olan əsgərə bu xəbəri vermək təsəvvür etdiyinizdən də qəribə və möcüzəvi bir şeydir. 2020-ci il dekabrın 26-sında geri döndüm. Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli qanunu ilə təsdiq edilmiş ”Şuşanın azad edilməsinə görə ” medalı ilə təltif olundum. Bu medal mənim üçün bir xatirədir. Çünki biz Şuşaya əli-ayağı yalın daxil olmuşduq. Orda xatirələrimiz var. Şəhid olan qardaşlarım var. Allah onlara rəhmət etsin.

**“Ad, soyad, ata adı və nömrəmizi kağıza yazıb onu güllə keçirməyən boyunbağıya qoymuşduq ki, şəhid olsaq belə bilsinlər ki, kimik”**

**Sona Şıxəmirli**



## Monitorinq mərkəzi Ağdam rayonunda yerləşəcək

### Mərkəzdə 60 Rusiya və 60 Türkiyə hərbçisi xidmət edəcək

**Qarabağda atəşkəsə əməl olunması üzrə ortaq monitorinq mərkəzində 60 Rusiya və 60 Türkiyə hərbçisi xidmət edəcək.**

Trend-in məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

O bildirib ki, birgə mərkəzin yeri artıq müəyyənləşdirilib:

”Monitorinq mərkəzi Ağdam rayonunda yerləşəcək. Konteynerlər artıq gedib, tikinti başlayıb. İlkin mərhələdə hər ölkədə 60 hərbçi qulluq edəcək. Bizim hərbçilərimiz oraya yola düşməyə başlayıb”.

Nazir əlavə edib ki, bu, kiçik müşahidə mərkəzi olacaq, amma zərurət olacağı təqdirdə genişləndirmək mümkün olacaq:

“Gələcəkdə zərurət yaranacaqsa, biz Azərbaycanla danışacağıq və hər zaman lazımı dəstəyi göstərəcəyik”.

## Aİ Suriyanın xarici işlər nazirinə sanksiya tətbiq edib



**Avropa İttifaqı (Aİ) Suriyaya qarşı sanksiyaları genişləndirib.**

APA-nın ”RİA Novosti”yə istinadən verdiyi xəbərə görə, Aİ Suriyanın yeni xarici işlər naziri Faysal Mikdadın adını sanksiyalar siyahısına salıb.

*Qeyd edək ki, F. Mikdad ötən ilin noyabrın ortalarında vəfat edən Valid Muallemin yerinə təyin edilib.*

## Tanınmış şəxslər Müdafiə Nazirliyindən icazə almalıdır

### Anar Eyvazov: “Onlar ancaq bu halda hərbi formadan istifadə edə bilərlər”




**“Aktyorlar, müğənnilər və digər tanınmış şəxslər yalnız Müdafiə Nazirliyi və digər müvafiq qurumlardan icazə almaqla hərbi formadan istifadə edə bilərlər”.**

Bunu APA-ya açıqlamasında Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi Anar Eyvazov deyib. O bildirib ki, səfərbərlik üzrə orduya çağırılmış və tərxis olmuş şəxslər mövcud qaydalara əməl etməlidirlər.

**Onun sözlərinə görə, bura həmçinin, tanınmış şəxslər də aiddir:** ”Hərbi formadan istifadə hüququ olmayan şəxslər yalnız müvafiq qurumların icazəsi əsasında hansısa videoçarx, film və digər tədbirlər üçün istifadə edə bilərlər”.

# Savaş günlərində Tehran etibarsız davrandı

### Heç bir halda İran şirkətlərini Qarabağdakı quruculuq işlərinə buraxmaq olmaz



**İranın Xarici işlər naziri Məhəmməd Cavad Zərif yanvarın 26-da Moskvaya səfər edəcək. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. Onun sözlərinə görə, səfər çərçivəsində İran XİN başçısı rusiyalı həmkarı Sergey Lavrovla görüşəcək.**

M.Zaxarova qeyd edib ki, görüş zamanı Rusiya və İran XİN başçıları bir sıra beynəlxalq məsələləri müzakirə edəcəklər. Nazirlər İranın nüvə proqramı üzrə Birgə Hərtərəfli Fəaliyyət Planı, Dağlıq Qarabağ, Suriya, Əfqanıstan və Körfəzdə mövcud vəziyyət barədə fikir mübadiləsi aparacaqlar.

**Yaxın müddətdə baş tutacaq səfəri ”Şərq”ə dəyərləndirən politoloq Sədrəddin Soltan bildirib ki, son zamanlar İrana qarşı təzyiqlər artıb:** ”Yanvarın 20-dən, yeni Bayden prezident olandan sonra ABŞ-ın İrana olan siyasətində yeni sanksiyaların tətbiq ediləcəyi gündəmdədir. Amerika həmçinin Rusiyaya qarşı da sanksiya tətbiq edir və müxtəlif məhdudlaşdırıcı tədbirlər həyata keçirir. Cavad Zərifin də Rusiyaya səfəri perspektivdə Amerika ilə münasibətlərin qurulması və ABŞ-dan gözlənilən təzyiqlərin qarşısının birgə alınmasına hesablanıb. Şübhəsiz ki, belə görüşlərdə regional məsələlər də müzakirə olunacaq. Bunlardan ən vacibi isə Dağlıq Qarabağdır”.

**S.Soltan vurğulayıb ki, Azərbaycan Qarabağda quruculuq işlərində iştirak etmək üçün müxtəlif dövlətlərə müraciət edib:**

”İran da istəyir ki, Rusiya vasitəsilə Qarabağda fəaliyyət göstərsin. Cavad Zərif bir müddət əvvəl Qarabağda ölmüş erməni hərbçiləri ilə bağlı Ermənistana baş sağlığı verib. İranın karate üzrə çempionu Ermənistanda aldığı qızıl medalı Qarabağda ölən erməni idmançısının ailəsinə hədiyyə olaraq göndərib. Bir sözlə, İran Qarabağ məsələsində Ermənistanı Rusiyadan heç də az müdafiə etməyib. Ola bilsin ki, perspektivdə Qarabağda Rusiyanın yanında İran da görünsün. İran bütün hallarda vurnuxur ki, Qarabağda fəaliyyət göstərsin”.

Analitik diqqətə çatdırıb ki, heç bir halda İran hakimiyyəti və şirkətlərini Qarabağa buraxmaq olmaz: ”Çünki İran 44 günlük müharibə zamanı Azərbaycana etibarsız oldu. Bölgəyə İranın yerinə Pakistan buraxılmalıdır. Çünki Pakistan ölkəmizin haqq işini hər zaman müdafiə edib. Pakistan bizə İrandan daha yaxşı qonşuluq və müsəlmanlıq edir”.

**Yeganə Bayramova**

**Böyük zəfərə iki gün qalmış müjdəli xəbəri aldıq. Noyabrın 8-də göz bəbəyimiz - Şuşamız 28 illik əsarətdən qurtuldu. Bizim üçün zəfərin adı da Şuşa oldu.**

**Axı Şuşaya sevgimiz bir başqadır. Bu şahanə torpaqda doğulan da, doğulmayan da özünü o yurdda böyümüş kimi hiss edir. Səbəbini bilmirəm, lakin həqiqət budur. Şuşa doğmadan doğma, əzizdən əzizdir.**

# "Şuşa yazılan yerdən hücuma keçdik"

## "Bu gün, sabah ölərəm deyib, irəliləyirdik. Vətən uğrunda canımızdan keçməyi seçmişdik"



Şuşa döyüşlərinin də Vətən müharibəsində xüsusi yeri var. Çünki İbrahim xanın, Batmanqılıncın, Natəvanın, Üzeyirin, Xan əminin yurdu nə topla, nə də mərmiylə azad olunub. Əlbəyaxa döyüşlərlə, bizim igidlərin biləklərinin gücü ilə geri qaytarılıb. Şuşa fatehləri isə Azərbaycan Silahlı Qüvvələrinin Xüsusi Təyinatlılarıdır. General-leytenant Hikmət Mirzəyevin ərənləri qayalara, dağlara dırmaşıb, Şuşaya daxil olublar   Təbii orda baş verənləri savaşçılarımız daha yaxşı bilər.

Ona görə XTQ-lərdən bəhs etdim ki, həmin canlı əfsanələrdən biri ilə həmsöhbət olduq. Sosial şəbəkələr sağ olsun, bu fatehlə yolumuzu kəsişdirdi. XTQ olduğunu görcək profilini izləməyə başladım. Cəsarətimi toplayıb "Salam" yazdım. Çox gecmədi cavab gəldi. Və gözlədiyimdən daha səmimi, daha müdhiş müsahibə alındı. Söhbətimizi oxuyacaqsınız. Lakin igidin adını qeyd etməyəcəm. Həm də tarix yazanların kimliyini soruşarlarmı heç? Onun adı qəhrəmandır, poladdır, mübarizdir, bir sözlə Vətəndir, Vətən!

**Gəlin, "Şərq"də isimsiz savaşçımızın döyüş yolu ilə tanış olaq.**

**- Döyüş yolunuz hardan başladı?**

- Biz general-mayor Polad Həşimov şəhidlik zirvəsinə ucaldığı gündən hazırlaşmağa başladıq. O vaxtdan sentyabrın 27-nə qədər hazır vəziyyətdəydik. Nəhayət, müharibə başlayanda Goranboy, "Camış" dağdan Kəlbəcər istiqamətində irəlilədik. Düşmənin 20 km yaxınlığına qədər irəlilədik. Kəlbəcəri götürüb, yüksəklikdən aşağıya, yəni Cəbrayıla tərəf gedəcəkdik.

**- Sonra nə etdiniz?**

- Düz üç gün orda qaldıq. Artilleriya atəşinin altdaydıq, hər tərəfimiz düşmən postları idi. Havanın dumanlı olması bizə kömək edirdi, görünmürdük. Lakin yemək təminatımız tükənmişdi. Təsəvvür edin, sentyabrın 27-si yediyimiz yeməyin üstündə idik.

**- Yəni üç gün ac qaldınız?**

- Bəli. Həm ac idik, həm də yağışda islanmışdıq. Yüksəklik olduğu üçün hava da soyuqdu.

**- Nə deyim, borcunuzdan çıxa bilmərik**

- Zatən bu bizim borcumuz idi.

**- Var olasız. Davam edin, ardı maraqlıdır. Nələr baş verdi?**

- Sentyabrın 30-u ordan geri çəkil əmri verildi. Oktyabrın 1-i Lələtəpədən girdik. Postları təmizləyə-təmizləyə addımladıq. Cəbrayılın kəndlərini azad etdik. Onu da deyim ki, kəndlərdən əsər-əlamət qalmamışdı , xarabalığa çevrilmişdi. Biz irəliləyən zaman düşmən artilleriya ilə atəşə tuturdu, şəhidlərimiz və yaralılarımız vardı. Həm də çox dərinliyə getdiyimizə görə təminat gələ bilmirdi. Ac-susuz qalırdıq. Əslində aclıq elə də önəmli deyil. Lakin bir gündən artıq susuz qalanda halsızlaşırdıq. Azad etdiyimiz mövqelərdə tapdığımız suyu, qidanı bölüşürdük.

**- O tapdığınız tikəni birlikdə böldüyünüz, illərdir çiyin-çiyinə xidmət etdiyiniz silahdaşlarınızın yanınızda şəhid olması necə acı hissdir. Yaşayan, yəni siz bilərsiz**

- Əlbəttə. Əslində mən soyuqqanlıyam. Bilirdim ki, bizi hər şey gözləyir. Evə sağ qayıdacağıma belə ümidim yox idi. Hər çətinliklə barışmışdım. Həm də döyüş meydanında elə də təsir etmir. Ancaq indi işdə şəhadətə ucalan yoldaşlarımı görməyəndə acı çəkirəm.



**"Əvvəlcə şəhərə girmək çətin oldu. Ancaq düşmənin texnikaları vurulandan sonra təkrar hücum etdik. Bu zaman düşmənlə əlbəyaxa vuruşduq. Onlar döyüş qabiliyyətlərini itirmişdilər. Qaçmağa çalışırdılar"**

**- Allah hamısına rəhmət eləsin.**

- Amin.

**- Döyüşə qayıdaq. Cəbrayılın özünə nə vaxt daxil oldunuz?**

- Hə. Oktyabrın 3-ü səhərə kimi yol getdik. Hava yağışlı idi, ətrafdan düşmənin səsi gəlirdi. Eşidirdik ki, texnikaları hərəkət edir. Nəhayət, ayın 4-ü, səhər saat 10 radələrində Cəbrayıl düşmənlərdən təmizləndi.

**- Maraqlıdır, heç istirahət edirdinizmi? Yoxsa dayanmadan irəliləyirdiniz?**

- Oktyabrın 5-i bizi Beyləqana qaytardılar. 7-nə kimi dincəldik. Sonra döyüş meydanına geri döndük. Bu dəfə hədəf Füzuli idi. Rayonun kəndlərini düşməndən azad edə-edə gedirdik. Digər istiqamətlərdən də başqa dəstələrimiz irəliləyirdilər. Artıq 1 həftədən çox idi ki, təminat gətirilməsi mümkün deyildi. Yenə də şəhidlərimiz, yaralılarımız oldu. Silahdaşlarımız gözümüzün önündə şəhadətə ucalırdılar.

**- Bəs şəhidləri yardım gələnə qədər necə saxlayırdınız?**

- Biz irəli getməliydik. Bir yerdə gizlədib, koordinatlarını bizimkilərə ötürürdük. Yol açılan kimi gəlib, aparırdılar...

**- Qaldığımız yerdən davam edək. Ən son Füzulidə idiniz...**

- Deməli, 16 oktyabrda Füzuliyə girdik. Orda da hər yer dağılmışdı. Bir xeyli düşmən bizi gözləyirdi. Özü də texnikalarla, tanklar, döyüş maşınları və BTR-lərlə... Başımıza yağmayan mərmi qalmamışdı, minamyotlar, toplar, qradlar... Buna baxmayaraq düşmən çox sayda itki verərək geri çəkilməyə məcbur oldu. Tankları, kamazları vuruldu. Düzdür, Füzuli döyüşlərində şəhidimiz çox oldu. Yenə də hədəfimizə çatdıq. Sonra bizə bir gün istirahət verildi. Elə Füzulidə dincimizi aldıq. Oktyabrın 19-da Şuşaya yola düşdük. 40 kilometrlik məsafə qət etməliydik. Havalar da soyuyurdu, gecələr soyuqdan çətinlik çəkirdik. Dua edirdik ki, səhər tez açılsın (təbəssüm edir). Gecə-gündüz demədən irəliləyirdik.

**- Ona görə də sizə Şuşa fatehləri deyirlər...**

- Elədir. Amma özünü reklam edən də çoxdur *(gülümsəyir)*

- Ola bilər. Yenə də sizin haqqınızdır.

- Hə. Şuşanın kəndlərini azad edə-edə addımlayırdıq. Noyabr ayının 5-də Laçın dəhlizini tutmuşduq. Ermənilərə heç yerdən kömək gələ bilməzdi. Digər dəstələrimiz isə Daşaltıdan və Şuşanın arxa tərəfindən, qayalıqlardan, düşmənin ağlına gəlməyən nöqtələrdən hücum edirlər. Biz də yolu götürmüşdük. Lakin düşmən hücuma keçirdi. Yenə artilleriya ilə atəş açırdılar. Özümüz də halsız idik, yemək yemirdik. Dərələrdən axan sudan içirdik. Artıq digər çətin relyefi o biri dəstələr keçmişdi. Biz də Şuşa yazılan yerdən hücuma keçdik. Arxa və qabaq girişdən ikitərəfli hücum etdik.

**- Ən heyrətləndiricisi isə əlbəyaxa döyüşlərdir...**

- Onlar bütün güclərini girişə qoymuşdular. Tank, döyüş maşınları çoxsaylı heyət şəhərin qapısını müdafiə edirdi. Bizim isə əlimizdə atıcı və tank əleyhinə silahlar vardı. Əvvəlcə şəhərə girmək çətin oldu. Ancaq düşmənin texnikaları vurulandan sonra təkrar hücum etdik. Bu zaman düşmənlə əlbəyaxa vuruşduq. Onlar döyüş qabiliyyətlərini itirmişdilər. Qaçmağa çalışırdılar.

**- Bir erməni əsgəri müsahibəsində igidlərimizin şücaətini etiraf edib. Deyirdi ki, hətta qolları belə qopsa üstümüzə gəlirdilər. Siz də ətindən ət də getsə döyüşə davam edənlərdən birisiz. Bəs savaş anındakı psixoloji durumunuzu sözlərlə ifadə edə bilərsinizmi?**

- Şəxsən mən geriyə dönməyi düşünmürdüm. Hər gün, yaxud da 2 gündən bir şəhid verirdik. Biz də bu gün, sabah ölərəm deyib, irəliləyirdik. Vətən uğrunda canımızdan keçməyi seçmişdik. Mən 28 ildir Qarabağı azad edəcəyimiz zamanı gözləyən biri kimi sevinirdim. Əlbəttə, bir tərəfdən də ailəmin yanına sağ qayıtmaq istəyirdim. Amma geriyə dönəcəyimə az da olsa ümidim yox idi. Ona görə heç kimdə qorxu hiss olunmurdu. Bilirdik ki, yaralı halda qalıb, şəhid olacağıq. Kömək çata bilməyəcək. Ona görə yaralılar da yoldaşlarına yardım edirdi. Bir az qorxu da vardı. Qorxusuz insan olmur. Ən çox qorxduğum şey parça-parça olmaq idi. Ailəmə basdırmaq üçün nə isə aparmalarını istəyirdim. Çünki elə yoldaşlarımız paramparça hala düşdü ki, onlardan nə tapsaq yığdıq torbaya.

**- Dəhşətdir...**

- 7 noyabr axşam saatlarında Şuşaya girdik. Düşmən artilleriya ilə atəş edirdi. Artıq Şuşaya hava hücumu oldu, qırıcıları bombalamağa başladıq. Ayın 8-i radioda eşitdim ki, cənab prezident Şuşanın azad olunma xəbərini xalqa çatdırır. Biz hələ müharibənin bitəcəyini bilmirdik. Ordan istiqamət Xankəndi idi. Ayın 7-dən 9-na kimi Şuşanı müdafiə etdik, hələ qoşunlarımız gəlməmişdilər. 9-u gecə irəliləyib, Şuşakəndi düşməndən təmizlədik. Noyabrın 10-da atəşkəsin elan olunduğunu eşitdik. Nə baş verdiyini bilmirdik. Bir yandan da 44 gündə çəkdiyimiz əziyyətin bitməsindən dolayı sevinirdik. Sonra öyrəndik ki, digər rayonlarımız sülh yolu ilə qaytarılacaq.

**- Burda da ab-hava təxmini eyni idi. Şükür ki, indi hər şey qaydasındadır. Təbii sizlərin və şəhidlərimizin sayəsində.**

- Allah şəhidlərimizə rəhmət eləsin. Bu gün Hərbi hospitala getmişdim, acınacaqlı vəziyyətdir. Yaralılar hərəsi bir tərəfdə növbə gözləyirlər. Mən sağlam adam 3 saat gözlədim həkim qəbuluna düşmək üçün.

**- İnşallah, hər şey yaxşı olacaq.**

- Sağ olun...

**- Az qala soruşmaq yadımdan çıxacaqdı. Şuşa şəhərini görəndə nələr hiss etdiniz?**

- Çox sevinirdim. Şəhər gözəl görsənirdi. O alınmaz qala bizdə idi. Şuşa bir az dağıntılara məruz qalıb, bəzi evlər uçub. 9-u axşam Şuşadan çıxıb, 12-si geri qayıtdıq. Geri dönəndə gördük ki, daha çox dağılıb. Marketlər, mağazalar uçmuşdu. Maşınlar sökük-sökük idi. Quzu yeyən kim, kabab bişirən kim, tiktok çəkən kim, divarlara bölgələrin adını yazan kim...(Təbəssüm edir)

**- Demək olar hamısını gördük biz də...**

- Başqa sualınız var? Müharibəni təkrar yaşadım sanki...

**- Üzrlü sayın, bunu fikirləşməmişdim. Yaranızı qanatdım, bağışlayın.**

- Eybi yox. Əsas söhbətimizin bir köməyi oldu sizə?

**- Əlbəttə. Özü də çox.**

- Demək pis çıxmasın. Bayraq ordeni, Şuşa, Cəbrayıl, Füzuli və Kəlbəcərin azad olunmasına görə medalları ilə təltif olunmuşam. 2016-cı il Aprel döyüşlərində də iştirak etmişəm.

**- Niyə pis çıxsın ki? Haqqınız, halalınızdır. Təbriklər...**

- Çox sağ olun.

**- Vaxt ayırdığınız üçün təşəkkür edirəm. Suallarımla yaranızı qanatdımsa, bağışlayın məni. Hiss olunur ki, müharibənin acı reallıqları psixoloji durumunuza təsir göstərib...**

- Qardaş dediyim dostlarım şəhid oldular. Onların yoxluğu çətindir. Bir sırada durub, zarafatlaşdığım adamlar yoxdur. Sosial şəbəkələrdə fotolarını gördükcə ürəyim yanır. Əsəblərim korlanıb, xırda bir şeydən də özümdən çıxıram. Psixiatrın müayinəsində idim. Bir-iki dərman yazdı, dedi düzələcək.

**- Yaxşı olar, inşallah. Bir də unutmadan deyim, sizə sözüm var. Tarixi 10 dekabr paradı zamanı Hikmət paşanın başçılığı ilə Xüsusi Təyinatlıların bir hissəsi xalqın qarşısına çıxdılar. Mən xüsusilə XTQ-lərə diqqət etdim. Sanki gözlərinizdə bir dərinlik var. Gördüklərinizi, bütün ağrılarınızı bir quyuya atıb o baxışlarda gizlətmisiz. Dediyim odur ki, yaşadıqlarınızı, acılarınızı duyuruq...**

- İndi də elədir. Dəyişən bir şey yoxdur.

**- Allah yar və yardımçınız olsun. Tarixə düşəsi söhbətdir. Artıq yekunlaşdıraq. Sizi də yordum.**

- Xoşdur...

**- Bir də varsa, müharibə zamanı çəkdiyiniz fotoları göndərə bilərsinizmi zəhmət olmasa.**

- Telefona baxaram. Erməni leşlərinin şəkillərinə ehtiyac var?

**- Yox. Müsahibəmizi onların mənfur simaları ilə korlamayaq...**

- Oldu *(gülümsəyir)* Bir neçə şəkil göndərdim. Elə çox yoxdur. Bunlar Laçın dəhlizində və Şuşanın girişində çəkilib.

- Sağ olun...

**Samirə Ərəbova**

# "Ad günümdə cənazəsi gəldi..."

## Həmidağa atışma olmadığı bir vaxtda düşmən snayperinin qurbanı olub



Torpaq uğrunda ölən varsa, vətəndir. İkinci Qarabağ müharibəsi dövründə minlərlə hərbçimiz Vətən uğrunda canından keçdi. Necə deyərlər, onlar torpağı qanları ilə yudular. Aralarında peşəkar döyüşçü də var idi, könüllü də. Amma heç bir fərq hiss edilmədi. Düşmənin xain güllələrinə tuş gələn professionallarımız, savaşdan sağ çıxan könüllülərimiz heç də az deyildi.

Müharibə belədir - heç kimə, hətta arxa cəbhədəkilərə belə güzəştə getmir.

**Vətən savaşı Xüsusi Təyinatlı Qoşunların kapitanı Həmidağa Hüseynzadə üçün də son döyüşlər oldu. Şəhidin bacısı Xavər Kərimova qardaşının həyatı barədə "Şərq"ə danışıb:**

"1990-cı il avqustun 13-də Bakıda anadan olub. Orta məktəbi bitirdikdən sonra təhsilini Hərbi Akademiyada davam etdirib. Sonra Ehtiyat Zabit Hazırlığı Kursları bazasında Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyətə başlayıb. Tovuz, Ağdam və Füzulidə ayrı-ayrı vaxtlarda xidmət edib. Qardaşım 2016-cı ildəki Aprel döyüşlərində öz dəstəsi ilə birlikdə Lələtəpə yüksəkliyinin alınmasında böyük şücaət və qəhrəmanlıq göstərib.



Bundan sonra isə Prezident, Ali Baş Komandan onu müvafiq medalla təltif edib. Qardaşım soyadını daşıdığı "Mixaylo" ləqəbli *(red: Mehdi Hüseynzadə)* döyüşçütək cəsarətli idi. Üzündə xal olduğuna görə, ermənilər onu "Xallı" adlandırırlarmış.

### Şəhid bacısı deyir ki, qardaşının müharibədə iştirak etdiyindən xəbərləri olmayıb



Qardaşım həmişə müxtəlif vasitələrlə həmin xalı gizlədirdi ki, tanınmasın".

*Xavər xanım şəhidimizin müharibədə iştirak etməyindən bixəbər olduğunu deyib:* "N saylı hərbi hissədə qrup rəhbəri idi. Kəşfiyyatçı olduğuna görə çox danışmağı sevmirdi. Ümumiyyətlə, işi ilə bağlı nəsə demirdi. Sonuncu dəfə sentyabrın 25-də danışmışam.

Dedi ki, təlimə gedirəm. Bu "təlim"in Vətən müharibəsi olduğunu nə biləydim? Döyüş yoldaşlarının dediyinə görə, qrupun önündə gedən qardaşım Murovdağ yüksəkliyində bir neçə postu "təmizləyib". Ayın 28-də, atışma olmadığı bir vaxtda isə düşmənin snayperinin qurbanı olub.

Oktyabrın 2-də - mənim ad günümdə cənazəsi gəldi. II Fəxri Xiyabanda dəfn etdik. Allah qardaşımın timsalında bütün şəhidlərə rəhmət eləsin".

**Kənan Novruzov**

# Yoluxma sayı da düşür, ölü sayı da...

## Azərbaycanda bir gündə 494 nəfər koronavirusdan sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 349 yeni yoluxma faktı qeydə alınıb, 494 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 12 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 226 549 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 213 773 nəfər müalicə olunaraq sağalıb, 2 983 nəfər vəfat edib, aktiv xəstə sayı 9 793 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 231, ötən müddət ərzində isə ümumilikdə 2 302 843 test aparılıb.

# Belçikada itkin düşən azərbaycanlı müəllimin meyiti tapılıb



**Bir müddət əvvəl Belçikada itkin düşən və polis tərəfindən axtarılan Azərbaycan vətəndaşının meyiti tapılıb.**

"Report"un Avropa Bürosunun əldə etdiyi məlumatda deyilir ki, Mexelen şəhərində yaşayan Vüqar Rza adlı Azərbaycan vətəndaşı ilə bağlı bir həftə öncə yerli polis tərəfindən axtarış elan olunub. Nəhayət bu gün səhər saatlarında V. Rzanın meyiti tapılıb. Mexelen Şəhər Polis İdarəsindən verilən məlumata görə, Azərbaycan vətəndaşı ilə bağlı yerli Cinayət Məcəlləsinin ölüm həddinə çatdırma maddəsi ilə cinayət işi açılıb. Faktla bağlı istintaq davam edir.

Məlumat üçün qeyd edək ki, əslən Azərbaycanın Kəlbəcər rayonundan olan V.Rza Şəkidə müəllim işləyirmiş. O, bir neçə il əvvəl Belçikaya gəlib.

# Zülmətdən işığa, işıqdan zülmətə...

## Keçmiş məhkumlar oğurluğa daha çox meyilli olurlar

Keçmiş məhkumlar niyə təkrar cinayətə meyillənir? Mütəxəssislər bunu daha çox onların maddi ehtyacları ilə bağlayır. Hindistanın məşhur "Avara"sı yadınızdadı, yəqin. Balaca Rac yalvarır-yaxarır ki ona iş verin, zalım Caqa da "yox! Sən oğru olacaqsan! Oğurlayacaqsan!" bağırır. Həyatın dibi budur. Film də, elə filmdir.

Görəsən bizdəki oğruları da kimsə məcbur edir, oğurlağamağa? Məsələn, Balakən Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yanvar ayının 6-dan 14-dək olan müddət ərzində şəhər ərazisində yerləşən üç evdən oğurluq edən şəxslər saxlanılıb. DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupunun məlumatına görə, aparılan araşdırmalarla müəyyən edilib ki, saxlanılan şəxslər - Balakən şəhər sakinləri, əvvəllər hər ikisi məhkum olunmuş Fərid Qazaxov və Elçin Yusifov qanunsuz yollarla daxil olduqları evlərdən televizor, su qızdırıcıları, su nasosları, müxtəlif məişət əşyaları oğurlayaraq onların bir qismini dəyərindən ucuz qiymətə satıblar. Həmin əşyalar tapılaraq maddi sübut kimi istintaqa təqdim olunub. Bu insanların maddi imkansız olmaları mümkündür. Amma oğurlamaq şərtmi? Yəni, həqiqətən bu insanlar gndəlik bir iş tapıb gündəlik qazanc əldə edə blməzlər?

**Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev keçmiş məhkumların oğurluq etməsinin səbəblərindən biri kimi onların narkotik maddə asılılığı olmasını göstərdi:**

- Əlbəttə, biz burada işsizliyin yaratdığı maddi sıxıntını istisna etmirik. Bu, ən başlıca səbəbdir. Amma məhkumların bəzilərinin narkotik asılılığı olduğunu nəzərə alsaq, onlar bədənlərinin bu ehtyacını ödəmək üçün maddi vəsait əldə etməlidirlər. Qazancları olmadığından "asan" yolu seçirlər və oğurluq edir, oğurladıqları



### Narkotikdən asılılıq olduğuna görə onlar hər vəchlə pul əldə etmək məcburiyyətində qalırlar

malların müqabilində pul alır və ehtiyacları üçün realizə edirlər. Dövlət keçmiş məhkumların işlə təmin edilməsi, onlara müavinətlərin ödənilməsi istiqamətində iş görür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məşğulluq proqramları çərçivəsində fəliyyət göstərir və məhkumluqdan azad edilmiş şəxslərin işə cəlb olunmalarına çalışır. Keçmiş məhkumların işə cəlb edilməsi praktikası var və dəqiq statistik rəqəm hazırda əlimdə olmasa da, xeyli sayda keçmiş məhbusun işə cəlb edildiyini deyə bilərəm. Məhkumluqdan azad edilmiş şəxslərə bildiyim qədər əmək haqqını 4 misli qədərində müavinət ödənilir. Qanunda belə müddəa var. Həmçinin məhkumluqdan azad edilən şəxslərə mövsümə görə geyim, ayaqqabı almaq üçün, yol xərci, ərzaq üçün pul ödənilir. Amma əlbəttə, bunlar o şəxslərin sonrakı həyatlarını keçindirmək üçün azlıq təşkil edir. Onlar işlə təmin edilməlidir. Bu işdə düşünürəm ki, dövlət strukturlrı ilə yanaşı özəl sektor da çalışmalıdır. Vətəndaş cəmiyyətinin də üzərinə məsuliyyət düşür. Vətəndaş cəmiyyəti institutları məhkumluqdan azad edilmiş şəxslərin cəmiyyətə inteqrasiyasına yardımçı olmalıdır. Ancaq hazırda vətəndaş cəmiyyətinin maddi resurslara çıxışında problem var. Resurslar yetərli olmadığından lazımi işləri görə bilmirlər. Deyək ki, məhkumluqdan azad edilmiş şəxslərin reabilitasiyası üçün peşəkarlar, psixoloqlar, hüquqşünaslar cəlb olunmalıdır, buna da vəsait lazımdır. Ona görə də işsiz qalan, həyatda özünə yer tapa bilməyən, məşğuliyyəti olmayan keçmiş məhkumlar bəzən təkrar cnayətlərə əl atır və yenidən məhkumluq həyatı yaşamalı olurlar.

**Məlahət Rzayeva**

# Qarabağda saxlanmış terrorçulara nicat yoxdur

## 10 noyabrdan sonra ərazilərimizdə əlində silah olan istənilən erməni cinayətkar sayılır



Ermənistan Baş naziri Nikol Paşinyanın Moskvada keçirilən üçtərəfli görüşdən sonra erməni "əsirlərlə" bağlı narazılığı düşmən ölkənin mediasında geniş müzakirə olunmaqdadır. Erməni mətbuatı və siyasi şərhçilər Hadrutda Azərbaycan hərbçilərinə hücum etmiş terrorçu qruplaşma üzvlərini "hərbi əsir" kimi qələmə verərək onların geri qaytarılmasını tələb edirlər.

> "Rəsmi Bakı ortaya arqumentlər qoyur və hesab edir ki, kütləvi şəkildə ərazimizə soxularaq diversiya fəaliyyəti göstərən şəxslərə hüquqi yanaşma tam fərqli olmalıdır"

Azərbaycan tərəfi isə dəfələrlə bəyan edib ki, Xocavənd rayonunun Hadrut qəsəbəsində terror-təxribat və diversiya əməllərini törətmiş 62 nəfər erməni müharibə "əsiri" kimi Ermənistana təhvil verilə bilməz. Onlar qanuni ərazilərimizdə terror aktına əl atdıqları üçün Azərbaycan məhkəmələrində cavab verəcəklər və öz cəzalarını alacaqlar. Rəsmi Bakı 10 noyabr Bəyanatının bütün şərtlərinə, o cümlədən əsirlərin qaytarılmasını əks etdirən 8-ci maddəyə tam əməl edir. Ötən müddət ərzində 44 günlük müharibədə əsir və girov götürülən bütün ermənilər Ermənistana qaytarılıb. Lakin Azərbaycan ərazisində bizim hüquq-mühafizə orqanlarımız və silahlı qüvvələrimizdən başqa əlində silah olan kəs terrorçudur.

Xarici ölkələrdə terrorçularla necə rəftar edilirsə, Azərbaycanda da münasibət eyni olmalıdır. Xatırladaq ki, 2020-ci il noyabr ayının 26-da Xocavənd rayonunun Sur kəndində ermənilərin qəfil hücumu nəticəsində 3 hərbi qulluqçumuz şəhid edilib, 2 nəfər yaralanıb. Dekabrın 8-də həmin rayonun Hadrut qəsəbəsi yaxınlığında daha 1 hərbi qulluqçumuz həlak olub, "Azercell" şirkətinin əməkdaşı isə ağır yaralanıb. Ermənistan tərəfi, xüsusən Baş nazir Nikol Paşinyan 44 günlük müharibənin yenidən başlamasını istəmirsə, ölkəsində və bölgədə sabitlikdə maraqlıdırsa, Azərbaycanın şərtlərinə qeyd-şərtsiz əməl etməlidirlər. Əgər Yerevan bir daha bu cür təxribatların yaşanmaycağına söz verərsə, müəyyən məsələlərə yenidən baxıla bilər. Bu arada İnsan Hüquqları üzrə Müvəkkil Səbinə Əliyeva da təxribatçı ermənilərlə görüşüb və onların vəziyyəti ilə maraqlanıb. Ermənilər saxlanma şəraitindən, rəftardan, qidadan və tibbi xidmətdən şikayət etməyiblər.

**Humanitar Tədqiqatlar İctimai Birliyinin sədri, hüquq müdafiəçisi Əvəz Həsənov "Şərq"ə deyib ki, erməni diversantlar 10 noyabr atəşkəs anlaşmasından sonra təxribata cəhd etdikləri üçün Azərbaycan hərbçiləri tərəfindən kütləvi halda saxlanılıblar.** Hüquqşünasın sözlərinə görə, rəsmi Bakı maksimum çalışır ki, erməni terrorçuların "əsir" və "girov" kimi qeyd-şərtsiz Ermənistana təhvil verilməsinə mane olsun: "Ermənistan tərəfi onları "əsir" kimi qələmə verərək geri qaytarılmasına çalışır. Onlardan başqa davranış gözləməyə dəyməz. Üçtərəfli Bəyanatın müvafiq bəndinə əsasən, Dağlıq Qarabağdakı bütün silahlı birləşmələr bölgəni tərk etməliydi. 10 noyabrdan etibarən Qarabağda əlində silah ələ keçirilmiş, mövqelərimizə hücum etmiş istənilən erməni cinayətkar sayılır. Cəzaları isə Azərbaycan qanunları çərçivəsində verilir. Rəsmi Bakı ortaya arqumentlər qoyur və hesab edir ki, kütləvi şəkildə ərazimizə soxularaq diversiya fəaliyyəti göstərən şəxslərə hüquqi yanaşma tam fərqli olmalıdır".

**Hüquq müdafiəçisi Vətən müharibəsi dövründə itkin düşmüş 64 Azərbaycan hərbçisinin axtarışlarının davam etdiyini də söyləyib:** "Bu məsələ gizli saxlanıla bilməz, axtarışlar davam edir. Hökumətimiz, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Rusiya sülhməramlıları prosesin iştirakçısıdır. Ancaq bu cür axtarışlar müəyyən vaxt aparır. Hələlik 64 nəfərdən neçəsinin hərbi əməliyyatlar zamanı şəhid olması, əsir və ya itkin düşməsi ilə bağlı dəqiq məlumat yoxdur. Bu barədə indiki məqamda nəsə demək çox çətindir".

**İsmayıl Qocayev**

## Anjey Kaspşikin mandatı yenidən uzadılıb

### ATƏT-in fəaliyyətdə olan yeni sədrinə yeni xüsusi nümayəndələr də təyin edilib



**ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi, polşalı diplomat Anjey Kaspşik yenidən ATƏT sədrinin şəxsi nümayəndəsi təyin olunub.**

APA-nın xəbərinə görə, bu barədə məlumat ATƏT-in rəsmi saytında yerləşdirilib.

ATƏT-ə sədrliyin İsveçə ötürülməsi ilə təşkilatın fəaliyyətdə olan sədrinə xüsusi nümayəndələr təyin edilib.

Bildirilib ki, 2020-ci ildə Albaniyanın ATƏT-ə sədrliyi dövründə çalışan xüsusi nümayəndələrin çoxu İsveçin sədrliyi dövründə də fəaliyyətinə davam edəcək.

Bununla belə, ATƏT-in fəaliyyətdə olan yeni sədri Ann Lindeyə yeni xüsusi nümayəndələr də təyin edilib. Səfir Kent Harstedt fəaliyyətdə olan sədrin xüsusi elçisi, Rozalin Marbinah Gənclər və Təhlükəsizlik üzrə xüsusi nümayəndə, Liliana Palihoviçi Gender məsələləri üzrə xüsusi nümayəndə, Professor Anita Ramasastri Antikorrupsiya üzrə xüsusi nümayəndə və səfir Annika Soder isə Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin edilib.

*Qeyd edək ki, fəaliyyətdə olan sədrin xüsusi nümayəndələri ATƏT regionunda böhranların və münaqişələrin həlli istiqamətindəki işində sədrə kömək etmək və iştirakçı dövlətlərin konkret sahələrdə səylərini daha yaxşı əlaqələndirməyi təmin etmək üçün təyin edilir.*

*Qeyd edək ki, Anjey Kaspşik ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi vəzifəsini 1997-ci ilin yanvarından icra edir.*

# "Ermənilərin istədiyi 62 nəfər diversantdır"

## Cümşüd Nuriyev: "Onlara qarşı cinayət işi qaldırılıb. İndi istintaq gedir"



Yanvarın 13-də Rusiyanın Xarici işlər naziri Sergey Lavrov və onun erməni həmkarı Ara Ayvazyan arasında telefon danışığı baş tutub. Verilən məlumatlara görə, tərəflər Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 11 yanvarda Moskvada Dağlıq Qarabağla bağlı imzaladıqları bəyanatın icrasını müzakirə ediblər. Bildirilir ki, Rusiya və Ermənistan XİN başçıları ikitərəfli münasibətlər və regional gündəm barədə fikir mübadiləsi aparıblar.

Görüşü şərh edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev söyləyib ki, əslində bu danışıqlar gözlənilən idi: "Paşinyan həm Qarabağın statusunu, həm də əsirlərin dəyişdirilməsi məsələsini gündəmə gətirdi. Lakin Azərbaycan Prezidenti çıxışında dedi ki, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb, artıq gələcək haqqında düşünməliyik. 10 noyabr bəyanatının 9-cu bəndinə əsasən yeni bəyanat qəbul olunub. Bu da sırf Azərbaycanın iqtisadi maraqlarına uyğun olan addım idi. Digər məsələlər kənarda qaldı. Nəzərə almalıyıq ki, Rusiya Prezidenti Vladimir Putin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığında məhz Qarabağ məsələsini gündəmə gətirib. Rusiyanın sülhməramlı qüvvələri bu günə qədər daha çox Ermənistanın maraqlarını güdürdü. Bəyanatdan sonra Rusiyanın Xarici işlər naziri S.Lavrov və onun erməni həmkarı A.Ayvazyanla telefon danışığında yəqin ki, bu məsələni müzakirə ediblər. Rusiya onlara bildirməlidir ki, indiyə qədər etdiklərimizi artıq edə bilməyəcəyik. Çünki sülhməramlılar həm tikinti, həm məskunlaşdırma ilə məşğuldurlar. BMT nizamnaməsinin 6-cı bəndi sülhməramlılarla bağlıdır. Onlar özlərinə aid olmayan işləri görəndə, Azərbaycan tərəfinin haqlı narazılıqları olur. Bəlkə də Lavrov A.Ayvazyana qeyri-qanuni yolla Xankəndiyə səfərini təkrarlamamasını bildirib".

**Politoloq diqqətə çatdırıb ki, Azərbaycan hərbi əsir götürməyib. Onlar Azərbaycan ərazisinə diversiya qrupu ilə daxil olublar. Azərbaycan ondan qabaq 160 nəfəri buraxıb, lakin 62 nəfəri saxlayacaq:** "Onlara qarşı cinayət işi qaldırılıb. Azərbaycan bunun üçün hər şey edəcək. İndi istintaq gedir. Sonradan "onları kim göndərib?" kimi sualların cavabı tapılacaq. Onlar Ermənistanda əsgərliyə çağırılanları Qarabağa göndərməklə həyasızlıq nümayiş etdirirlər.

Burada ən maraqlı olanlar Rusiya XİN başçısı Lavrov və bu ölkənin Baş naziri, erməni əsilli Mixail Mişustindir. Bu şəxslər 44 günlük müharibə ərzində mediada Azərbaycan əleyhinə təbliğat aparırdılar. Rusiyanın baş naziri onlara dövlət mükafatı təqdim etdi. Bu o deməkdir ki, ermənilərin maraqlarını layiqli təmsil ediblər. Lakin hələ bilinmir ki, Mixail Mişustin vəzifədə qalacaq, yoxsa qalmayacaq. Erməni kökənlilər çalışacaq ki, nəsə etsinlər. Amma narahatlığa əsas yoxdur. Arxamızda Türkiyə kimi böyük və qardaş dövlətimiz var".

**C.Nuriyev sonda Azərbaycan XİN ilə Pakistan XİN arasında əməliyyatların birgə idarə olunması barəsində memorandum imzalaması məsələsinə toxunub:** "Əməliyyat yalnız döyüş bölgəsində olur. Azərbaycanı başqa dövlətlər açıq şəkildə dəstəkləyir. 210 milyonluq Pakistan, 85 milyonluq Türkiyə və 10 milyonluq Azərbaycan birlikdə onlardan 2 dəfə çoxdur. 44 günlük müharibə göstərdi ki, gücümüz, hər bir imkanımız da var. Ermənilər və onların arxasında olan Rusiya narahatdır. Necə ki, Dağlıq Qarabağ problemini yaratdılar, ardınca SSR dağılıb əllərindən çıxdı. Yenidən bu problemi gündəmə gətirməyə çalışırlarsa, tam əminliklə deməkolar ki, Rusiyanın dağılması başlanır".

**Aygün Tahirqızı**

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**




# MEDİA-nın yaradılmasında niyyət safdır

## Jurnalistikada hərşeyşünaslardan imtina olunmalı, rəqabətli media mühiti yaradılmalıdır

Azərbaycanda medianın inkişafı, jurnalistikada peşəkarlığın artırılması və bu sahədəki problemlərin həlli istiqamətində islahatlar dərinləşdirilir. Prezident İlham Əliyev Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) yaradılıb. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) hüquqi varisi olan bu yeni qurum KİVDF-nin bütün hüquqlarına sahib olacaq.

Yeni yaradılan qurumun İcraçı direktoru Əhməd İsmayılov rəhbərlik etdiyi agentliyin fəaliyyət istiqamətlərindən danışıb. MEDİA-nın jurnalistikanın inkişafında görəcəyi işlərdən danışan Ə.İsmayılov deyib ki, əsas məqsəd mətbuatda islahatların dərinləşdirilməsi, jurnalistlərin peşəkarlığının artırılması, onların sosial vəziyyətinin yaxşılaşdırılmasına yardım etməkdir: "Eyni zamanda, mətbuat orqanlarının nüfuzunun qaldırılmasına, biznes subyektinə çevrilməsinə yardım ediləcək. "Jurnalist" və "jurnalistin statusu" anlayışına hüquqi bazada aydınlıq gətiriləcək. Bu məsələyə aydınlığın gətirilməsi bizə tam imkan verəcək ki, media subyektləri və jurnalistlərlə bağlı iqtisadi, texniki və metodiki dəstək layihələrini həyata keçirək".

Onun sözlərinə görə, jurnalist və media subyekti blokunun birbirindən ayrılmasına ehtiyac var. Ə.İsmayılov əlavə edib ki, əvvəlkindən fərqli olaraq, agentliyin nizamnaməsinə media subyektlərinin bütün dairəsi daxil edilib. Agentlik tərəfindən həyata keçiriləcək tədbirlər bundan sonra onlayn, çap audioviziual media subyektləri üzrə əhatə edəcək. Ə.İsmayılov bildirib ki, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması üçün onların ixtisasartırması xüsusilə qeyd edilməlidir: "Jurnalistikaya gələmk istəyənlər üçün peşə hazırlığı tədrisinin təşkili və buna dəstək göstərilməsi əsas istiqamət olacaq. İkinci istiqamət hazırda jurnalistikada fəaliyyət göstərən jurnalist həmkarların ixtisasartırılmasının təmin olunmasıdır. Bunun üçün həm ölkənin mövcud kadr və infrastruktur potensialı çərçivəsində işlərin görülməsi, eyni zamanda xaricdən mütəxəssislərin cəlbi ilə bu təlimlərin və tədrisin keçirilməsi, xaricdəki tədris subyektləri ilə əlaqələrin qurulması nəzərdə tutulur. Media subyektlərinin iqtisadi müstəqilliyinin təmin edilməsi agentliyin əsas istiqamətlərindən biridir. Hazırda Medianın İnkişafı Agentliyi tərəfindən fəaliyyət planı hazırlanır. Həmin fəaliyyət planı çərçivəsində media subyektlərinin biznes modelinə keçidinə dəstək göstərilməsi istiqamətlərini araşdırmağa çalışacağıq".

Onun sözlərinə görə, bu dəstək media subyektlərinin özləri tərəfindən yeni biznes modelə keçidlə bağlı təklifləri əsasında olan layihələr şəklində də ola bilər. Yaxud bu, Agentlik tərəfindən həmin media subyektlərinin biznes modelinin tətbiqinə dövlətin dəstəyi formasının müəyyən edilməsində özünü göstərə bilər: "Biz hazırda bu fəaliyyətin həyata keçirilməsi istiqaməti üzrə araşdırma aparırıq. Bu istiqamətdə geniş müzakirələrin aparılması gözlənilir. Bu müzakirələr nəticəsində media subyektlərinin biznes modelinin formalaşdırılması yollarını müəyyən etməyə çalışacağıq".

Məlum olduğu kimi, bu günləri Azərbaycan mediasında kifayət qədər problemlər var. Bu problemi həll etmək üçün nə etmək lazımdır?

**Azərbaycan mediasında problemləri çox olduğunu vurğulayan tanınmış jurnalist Elçin Alıoğlu "Şərq"ə açıqlamasında qeyd edib ki, bu problemlərdən biri də dünyada populyar olan əcnəbi dillərdə yazan, oxuyan və bu dillərdə informasiya media məhsulları hazırlayan şəxslərin sayının ölkəmizdə az olmasıdır. O diqqətə çatdırıb ki, bu problemi həll etmək üçün sadəcə dil bilmək lazım deyil:** "Çünki media dili adi ünsiyyət dilindən, ünsiyyət dili isə ədəbi dildən çox fərqlənir. Yəni sadəcə xarici dili bilən şəxsin yaxşı jurnalist ola biləcəyi ehtimalı çox da böyük deyil. Ölkəmizdə xarici dili bilən çoxlu jurnalistlər var, lakin bu, problemin həlli deyil. Dilin öyrədilməsi, dilə vaqif olmaq, dilə bələd olmaq həmin dildə media məhsullarının hazırlanması medianın inkişafı və yaxud da problemin həlli demək o qədər də düzgün olmaz. Problemi necə həll etmək olar? İlk olaraq, əcnəbi dili mükəmməl öyrənmək lazımdır. Habelə, əcnəbi dilin media formatının öyrənilməsi əsas məsələlərdən biridir. Üçüncüsü isə xaricdə populyar və gündəmdə olan, Qərbin mediasının bugünkü gününü müəyyənləşdirən media strukturlarının hansı məhsulu ortaya qoyduğunu, necə qoyduğunu və məqsədinin nə olduğunu araşdırmalıyıq. Bundan sonra həmin təcrübədən bəhrələnərək ölkəmizdə baş verənləri, Azərbaycanın məqsədlərini, strateji taktiki hədəflərini biz xaricə çatdırmalıyıq".

Media eksperti əlavə edib ki, sadəcə ölkəmizdə hansısa məmurun açıqlamasını ingilis dilinə tərcümə etmək və yaxud da publisistik, bədii janrda ingilis dilində yazı yazmaq, bu, xaricidilli media demək deyil: "Azərbaycanda saytların, onlayn medianın xarici dildə variantının hazırlanması da problemdən çıxış yolu deyil. Çünki məsələn, mən Nigeriyada baş verən hər hansısa bir hadisəni öyrənmək üçün Nigeriya saytlarını axtarmıram. Sadəcə, "google"da axtarış verirəm və "Niger" yazaraq orada nə baş verdiyini öyrənirəm. Yəni elə etməliyik ki, bizim hazırladığımız xəbərlər xarici dillərdə dünyanın ən populyar axtarış sistemlərində ön sırada olsunlar və xaricdə bunu oxusunlar. Bunun üçün nələr edilməlidir? Birincisi, xəbər maraqlı, keyfiyyətli, obyektiv, soyuqqanlı, rasional və proqmat formada hazırlanmalıdır. Xəbərdə emisionallıq, baretonluq, mentorluq qətiyyən olmamalıdır. Qərbdə bu artıq mediada qəbuledilməzdir. Əgər biz "BBC", "Times" və yaxud da "New York Times" stilində işləmək istəyiriksə, bunun üçün xüsusi seminarlar olmalı, xüsusi kurslar açılmalı, xaricdə təlimatçılar, treninq ustaları, təcrübəli jurnalistlər ölkəmizə dəvət olunmalıdır".

*E.Alıoğlu qeyd edib k, bu gün ölkə mediasında ixtisaslaşma olmalıdır:* "Azərbaycanda savaş jurnalistikasını və hərbi reportyorluğu inkişaf etdirməliyik. Ən əsası jurnalistikamızda ixtisaslaşma olmalıdır. Məsələn, bu gün tibdən yazan jurnalist sabah ədəbiyyatdan, o biri gün biologiyadan, daha sonra hərbi əməliyyatlardan yazmamalıdır. Bu, mümkün də deyil. Ona görə də bu günləri jurnalistikaya məxsus olan hərşeyşünaslığı aradan qaldırmalıyıq. İxtisaslaşma olduqdan sonra artıq jurnalistika da öz işini görməlidir. Yəni mediamızda biri savaş reportyoru olmalı, o biriləri isə iqtisadiyyatın və s. sahələrin problemlərini mediada əks etdirməyə çalışmalıdır".

**Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru, tanınmış jurnalist Vüqar Ziférоğlu da "Şərq"ə açıqlamasında jurnalistika sahəsində ixtisaslaşmanın vacib olduğunu vurğulayıb:** "Bir praktiki jurnalist kimi bir jurnalistin hər sahədən yazmasını düzgün hesab etmirəm. Artıq 20 ildən çoxdur ki, mən beynəlxalq jurnalistka sahəsində çalışmışam. Hesab edirəm ki, jurnalistikaya qədəm qoyduqdan sonra orada jurnalistin ona yaxın olan sahəni seçib işləməsi onun gələcəkdə peşəkar kadr yetişməsi üçün son dərəcədə çox vacib və əhəmiyyətlidir. Yəni bir jurnalistin universal olaraq həm siyasətdən, həm də iqtisadiyyatdan yazması gələcəkdə onun həm də bir ekspert, mütəxəssis kimi yetişməsinə əngəl olur. Məsələn, Türkiyə, Rusiya, Avropa ölkələrinə diqqət etsək görərik ki, jurnalistlər ekspert kimi çıxış edirlər. Onlar iqtisadi, siyasi, beynəlxalq məsələləri şərh edirlər, münasibət bildirirlər. Bunlar da cəmiyyətdə necə gözəl və anlamlı qarşılanır. Bu mənada hesab edirəm ki, jurnalist həm də ekspert kimi yazdığı sahə üzrə özünü bir mütəxəssis kimi yetişdirməlidir. Jurnalist birinci gündən mediadan çalışmağa başladısa, o mütləq özünə uyğun müvafiq bir sahəni seçməli və addım-addım həmin sahə üzrə yetişdirməlidir. O jurnalist həmin sahə üzrə xəbər jurnalisti, sabah artıq xüsusi müxbir funksiyasını icra edə bilər. Daha sonra həmin sahə üzrə araşdırmaçı jurnalist kimi öz qələmini sınaya bilər və analitik-ekspert kimi çıxış edə bilər. Bunlar hamısı jurnalistikada inkişaf mərhələləridir. Yaxşı olardı ki, jurnalistikada artıq məhz bu meyarlar əsas götürülsün. Çox təəssüf ki, bunlar jurnalistikamızda çox az saydadır".

**V.Ziférоğlu qeyd edib ki, jurnalistika hər zaman yenilənməli olan bir təsisatdır:** "Çünki informasiya texnologiyaları inkişaf edir, informasiya ilə iş prosesinin artıq yeni çalarları, yeni meyarları ortaya çıxır. Hətta jurnalistikanın özündə dəyişikliklər çox sürətlə baş verir. Janrların transformasiyası gedir. Kütləvi informasiya vasitələrində konvengensiya baş verir, yəni bütün bu hallar birmənalı şəkildə həm də medianın yenilənməsi zərurətini ortaya qoymuş olur. Bax, bu səbəbdən Cənab Prezidentin imzaladığı fərmanda birmənalı şəkildə göstərilir ki, o qlobal informasiya məkanında baş verən yeniliklər, yeni tendensiyalar, onların izlənməsi, öyrənilməsi, tətbiqi, yəni bunların mediaya gətirilməsi, bütün bu məqamlar açısı baxımından yeni Medianın İnkişafı Agentliyinin yaradılması çox mühüm və əhəmiyyətli bir qərardır".

*V.Ziférоğlu mediamızın maddi-texniki bazasının daha da yaxşılaşdırılmasının çox mühüm və vacib olduğuna diqqət çəkib:* "Ümid edirəm ki, bu mənada agentlik mediamıza böyük bir dəstək verə bilər. İkinci bir məsələ, yeni media ilə bağlı hüquqi bazanın formalaşdırılmasıdır. Gəlin açıq etiraf edək ki, bu gün açığı internet medianın inkişafı, rəqəmsallaşma və s. bütün bu kimi yeniliklər, məqamlar müəyyən mənada bir informasiya nizamsızlığını ortaya qoyub. Bu da müəyyən mənada bir professional yanaşmanı zəruri edir həm də. Burda başqa bir məqam ondan ibarətdir ki, media orqanımızda çalışanların heç də hamısı ali təhsilli jurnalistlər deyil və aralarında həvəskarlar çoxdur. Təbii ki, bu, anlaşılan bir şeydir. Çünki jurnalistikaya hər zaman maraq böyük olub. Ələlxüsus da bu gün texnologiyaların inkişafı jurnalistikaya olan marağı, axını daha da artırır. Amma biz maksimum dərəcədə ona çalışmalıyıq ki, hətta həvəskar jurnalist kimi mediaya addım atan həmkarlarımız da peşəkarlıq baxımından müəyyən təlimlər, kurslar keçsinlər. Agentliyin nizamnaməsində bu da öz əksini tapıb. Hesab edirəm ki, bu gün mediada çalışan və mediaya həvəsi olan, jurnalist kmi öz gələcəyini görmək istəyən qeyri-ixtisas sahibləri üçün də çox geniş imkanlar açıla bilər. Biz də yeni yaranan agentliyimizə BDU-nun jurnalistika fakültəsi olaraq hər cür dəstək verməyə hazırıq. Çünki bizim bu məsələdə dəstək olmaq üçün kifayət qədər, ciddi madditexniki bazamız var".

**APA TV-nin baş redaktoru, tarix üzrə fəlsəfə doktoru Cavid İsmayıl "Şərq"ə açıqlamasında qeyd edib ki, Medianın İnkişafı Agentliyi ilk növbədə KİVDF təcrübəsindən imtina etməlidir:** "Çünki bu təcrübə özünü doğrultmadı, mediaya ayrılan milyonlarla vəsait bir qrup şəxs tərəfindən mənimsənildi. Ümid edək ki, yeni qurum media qanunvericiliyini təkmilləşdirəcək, nəticədə ələbaxan mediadan sağlam rəqabətə davamlı mediaya keçid nəhayət ki, başlayacaq. Niyyət safdır, gerçəkləşməsi üçün əməllərin də saf olacağına ümid edirəm".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Şəhərin mərkəzindən və girişindən uzaqdır

## Zəfər muzeyi paytaxtın görünən və ən uca yerində yaradılsa yaxşı olardı



Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması ilə bağlı hazırlıq işlərinə başlanılıb. Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi Bakının əsas prospektlərindən biri hesab olunan Nobel prospektində yerləşəcək.

Sözügedən prospektlə Ağ şəhər bulvarı arasında olan boş ərazidə yeni park salınır ki, muzey və kompleks də həmin parkda qurulacaq. Artıq bir neçə gündür ki, işlərə start verilib və Vətən müharibəsində düşmənin ələ keçirilmiş hərbi texnikaları əraziyə gətirilib. Hərbi texnikalar açıq havada Bakı sakinləri və qonaqlar üçün nümayiş olunacaq. Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması haqqında Prezident İlham Əliev ötən il dekabrın 3-də müvafiq sərəncam imzalayıb. Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinə həvalə edilib. Zəfər muzeyinin yaradılması, hərbi qənimətlərin, darmadağın edilmiş düşmən hərbi texnikasının da muzeydə sərgilənəcəyi illər öncə Quzey Kıbrısda ziyarət etdiyim açıq havada muzeyi yadıma saldı. Qeyd edim ki, 1974-cü ildə Kıbrıs adasına barış, Kıbrıs türklərinə qələbə qazandıran qəhrəman türk əsgərlərinin şəhid olduğu məkanda - Girnə sahillərində (Girnə-Alsancaq yolu üstündədir, türk əsgəri burdan adaya həmlə edib) Şəhidlər Xiyabanı - Qaraoğlan Şəhidliyi - salınıb, Barış və Özgürlük Muzeyi yaradılıb. Şəhidlərin xatirəsinə abidə ucalır. Yəni şəhidliyi, abidəsi, muzeyi ilə birlikdə memorial kompleksdi. Muzeyin həm qapalı salonu, həm də açıq hava altında ekspozisiya sahəsi var. Həm türk əsgərinin əldə etdiyi düşmən texnikası, həm də Barış hərəkatı zamanı istifadə olunan hərbi texnika açıq havada nümayiş olunur. Bunu ona görə xatırlatdım ki, müxtəlif ölkələrdə belə nümunələr mövcuddur. Memorial kompleks, muzey yaradılarkən bu cür nümunələrə müraciət etmək də olar. Yaxşı cəhətləri ərz etmək faydalı olar, hər halda. Nəzərə alaq ki, bizim İstiqlal Muzeyi təcrübəmiz də var artıq. Amma şübhəsiz Zəfər muzeyi daşıdığı mahiyyətə görə digərlərindən fərqli olmalıdır. Zəfər muzeyinin digər muzeylərdən fərqi nə olacaq? Bu muzey başqalarından necə seçilməlidir?

Yazıçı-publisist Nəriman Əbdülrəhmanlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, tarix boyu belə xatirə abidələrinin tikildiyi məlumdur:

- Zəfər tağları, qüllələr inşa edilib, qazanılan zəfəri xatırladıb. Amma həmin abidələr adətən şəhərlərin girişində, yaxud ən uca yerlərdə yaradılıb. Stalinqraddakı (indiki Volqoqrad) "Mamayev Kurqan"da olmuşam, məhz hündürlükdə, ən görməli yerdə yerləşir, daim qələbənin dəyərini xatırladır. Nobel prospektinin hansı kriteriyalarla seçildiyini bilmirəm, amma şəhərin mərkəzindən və girişindən uzaqdır. Vətən müharibəsi dövlətçiliyin bir parçasıdır, amma Zəfər muzeyi fərqli xüsusiyyətlərə və funksiyaya malikdir. Başlıcası, dövlətin o abidəyə diqqətinin əvəzini verməK, yəni insanların yaddaşında Zəfərin çəkisini daim diri saxlamaq yönündə fəaliyyət göstərmək lazımdır. Açıq havada saxlanılan eksponatların xüsusi qorunma şəraiti olmalıdır. Açıq havada eksponatların sərgilənməsi ziyarətçilərin diqqətini çəkir. Bu da muzey ənənələrindən biridir. Yəqin muzeyin təşkilatçıları eksponatların saxlanması, qorunması məsələlərini də nəzərə alarlar. Ümumən memorial kompleks də, Zəfər muzeyi də qazanılan qələbənin dəyərini, xalqımız, Vətənimiz üçün necə bir dərin mahiyyət daşıdığını əks etdirməlidir. Ən istedadlı, bacarıqlı rəssamlar, heykəltəraşlar, memarlar cəlb olunmalıdır bu işə.

**Məlahət Rzayeva**

## RİİB-in Qarabağ regional bölməsi bundan sonra Şuşa şəhərində fəaliyyət göstərəcək



**"Regional İnkişaf" İctimai Birliyinin (RİİB) Tərtər rayonunda yerləşən Qarabağ regional bölməsi yaxın günlərdə Şuşa şəhərinə köçürüləcək. Hazırda bununla bağlı təşkilati işlər görülür.**

RİİB-dən APA-ya verilən məlumata görə, İctimai Birliyin nümayəndələri və könüllüləri işğaldan azad olunmuş ərazilərdə həyata keçiriləcək quruculuq işlərində, eləcə də ictimai nəzarət, vətəndaş müraciətlərinə baxılması, sosial, səhiyyə, təhsil, mədəniyyət, infrastruktur və digər istiqamətlərdə layihələrin icrası, həmçinin regionun inkişafı sahəsində həyata keçirilən digər tədbirlərdə yaxından iştirak edəcəklər.

## Sayları açıqlanıb

### 100-dən çox olan pensiyaçıların sayı 400 nəfərdir



**Bu gün ölkəmizdə yaşı 100-dən çox olan pensiyaçıların sayı 400 nəfərdir.**

Bunu APA-ya açıqlamasında Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili bildirib. Onun sözlərinə görə, onlardan 27 nəfəri kişi, 373 nəfəri isə qadındır. Ən yaşlı kişi pensiyaçı İbrahimov Hilal İsa oğludur. O, 1915-ci il təvəllüdlüdür. Bakı şəhərində yaşayır. Ən yaşlı qadın pensiyaçı isə 1890-cı il təvəllüdlü Əzizova Tamam Əli qızıdır. O, Lənkəran rayonunda yaşayır.

## İmtahanların təşkilində güzəştlərin olması ilə bağlı təkliflər var



**İmtahanların təşkilində güzəştlərin olması ilə bağlı təkliflər edilir, amma hazırkı pandemiya dövrü bizi təhsilə daha məsuliyyətli yanaşmağı tələb edir.**

Trend-in məlumatına görə, bunu Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli deyib.

Onun sözlərinə görə, ötən ilin dekabrında imtahan sessiyasının keçirilməsi haqqında əmr imzalanıb. Sessiya imtahanları onlayn qaydada 4 həftə ərzində keçiriləcək: "Əslində, keçən ilin son semestrindən dərslər onlayn keçirilir. Bu, bütün təhsil sistemi üçün bir çağırışdır. Ən vacib məsələ odur ki, bir çox hallarda imtahanların formalarının keçirilməsi idi. Bundan əvvəl imtahanlar daha çox yazılı şəkildə keçirilirdi. Pandemiya şəraitində yazılı imtahanlar olsa da imtahanlar əsasən şifahi formaya keçib. Pandemiyadan sonra - bəlkə yaz, bəlkə də daha sonrakı semestrdə ənənəvi imtahan sessiyasına keçəcəyik".

## İmtahan sessiyası ilə bağlı monitorinqlərin nəticələri təhlil ediləcək

**İmtahan sessiyasının gedişatı ilə bağlı həyata keçirilən monitorinqlərin nəticələri təhlil ediləcək.**

Bunu Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli deyib. Onun sözlərinə görə, tələbə və müəllimləri narahat edəcək məsələ olacaqsa, buna operativ şəkildə reaksiya veriləcək: "İmtahan sessiyası ilə bağlı apellyasiyaların yaradılması universitetlərin səlahiyyətindədir. Təhsil Nazirliyi tədris prosesinə müdaxilə etmir. Nazirlik sadəcə ümumi siyasəti həyata keçirir".

# Çinin vaksinləri daha təhlükəsizdir

## Adil Qeybulla: "Bu ölkədə istehsal olunan vaksinlər sovet dövründə bizə vurulanlar kimidir"



TƏBİB-in Elmi Komitəsinin sədri, professor Akif Qurbanov koronavirusa qarşı vaksinlərin tətbiqi barədə maraqlı məqamlara toxunub. Professor qeyd edib ki, COVİD-19-a qarşı vaksin istifadə edən hər 100 nəfərdən 91-92-si virusdan tam qorunacaq, qalanları isə xəstəliyə yoluxsa da, onu yüngül keçirəcək.

"Çində hazırlanan "Sinovac" vaksininin 3-cü faza təhlükəsizlik sınaqları Türkiyədə də həyata keçirildi. Orada da onun effektivliyinin 91-92 faiz olduğu aşkar olundu. Bu çox yüksək göstəricidir. Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan koronavirusa qarşı peyvənd edilib. Dövlət başçısına Çinin "Sinovac" şirkətinin istehsalı olan "CoronaVac" vaksini vurulub. Ölkəmizdə də koronavirusla mübarizə tədbirləri çərçivəsində vaksinasiyanın tətbiqi mühüm yer tutur. Maraqlıdır, hansı vaksinlərin tətbiqi lazımdır və hansılar təhlükəsizdir?

**Sualımızı cavablandıran tibb elmləri doktoru, professor Adil Qeybulla "Şərq"ə bildirib ki, vaksinlərin hər biri təhlükəsizdir:**

"Çində istehsal olunan vaksinlər sovet dövründə bizə vurulanlar kimidir. Hesab edirəm ki, vaksinlərin tətbiqinə müsbət yanaşmaq lazımdır. Çində yüksək texnologiyalar mövcuddur. Oradakı vaksinlər də təhlükəsizdir. Amerika vaksinləri 70 dərəcədə soyuqda saxlanmalıdır. Bu da texniki baxımdan çox çətindir. Amma Çinin vaksinləri həm effektiv, həm də istifadə üçün sadədir. Bu baxımdan bizim də Çindəki vaksinlərdən istifadə etməyimiz yerinə düşərdi".

**Professor vaksinlərin tətbiqi zamanı xırda allergik reaksiyaların olma ehtimalını da vurğulayıb:**

"Onsuz da istənilən dərmana qarşı allergiya olur. Lakin ölüm halları vaksinasiya ilə əlaqədar deyil. Dünyada xəstəliklərə nəzarət və profilaktika mərkəzləri var. Bu mərkəzlər ciddi şəkildə vaksinlərin reaksiyalarını izləyirlər. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatında həmin məlumatlar qeyd olunur. Bu proses bütün dünyada izlənilir. Vaksinlərin ölüm və ifliclə nəticələnməsi boş şayiələrdir".

**Yeganə Bayramova**

# “Nizami bütün ruh etibarı ilə türk oğludur”

## Nizaməddin Şəmsizadə: “Onu daha qlobal şəkildə öyrənmək üçün böyük tədqiqatlar aparan mərkəzin yaradılmasına ehtiyac var”



ADA Universitetində keçirilən mətbuat konfransında Mədəniyyət naziri Anar Kərimov çıxış edib. O bildirib ki, 2021-ci il ərzində Azərbaycanda ICESKO-nun regional mərkəzi yaradılacaq və bir çox ölkələri əhatə edəcək. 2021-ci ilin "Nizami ili" elan olunması çərçivəsində ICESCO-da da bununla bağlı tədbirlər keçiriləcək. Anar Kərimov əlavə edib ki, bu tədbir Nizami Gəncəvinin islam dünyasına verdiyi töhfələrin beynəlxalq ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynayacaq.

**Məsələni ”Şərq”ə dəyərləndirən Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə regional mərkəzin yaradılmasını müsbət hadisə kimi qiymətləndirib:** ”Bizim üçün çətin və şərəfli olan tarixi dövrdə ”Nizami ili” elan edilməsini böyük hadisə hesab edirəm. Klassiklərimizi kampaniya xarakterli öyrənməliyik. Nizami bir regiona, respublikaya aid deyil, bütün bəşəriyyətə məxsus sənətkardır. Bəlkə də Sovet dövründə Nizamini yanlış öyrəniblər. Əlbəttə, Nizaminin bütün tədqiqatçılarını təqdir edirəm.

Lakin Sovet dövründə tədqiq olan klassiklərimiz, xüsusən Nizami, Füzuli kimi sənətkarlarımızın dinə, sufizm cərəyanına münasibəti bir qədər geniş şəkildə tədqiq olunmağa möhtacdır. Nizami xüsusilə, ispan və türk sivilizasiya tərkibində öyrənilməlidir. O, farsca yazıb, 1980-ci illərdə Nizaminin Tacikistanda ”Xəmsə”si çap edilmişdi.

Onun müqqədiməsində yazmışdılar ki, Nizami öz ana dilində daha yaxşı dərk olunur. İranın sabiq prezidenti Azərbaycana gəlib Nizami məqbərəsində olarkən onu fars şairi kimi təqdim etmişdi. Bu, yanlışdır.

Nizami bütün ruh etibarilə türk oğludur. Füzuli deyir ki, mən ərəbcə də, farsca da yazdım, amma türk dili ruhuma daha uyğundur. Nizami türk dilində yazmasa da, türkcə düşünüb. Məsələn, Çingiz Aytmatov rus dilində yazıb. Bu o deməkdir ki, Ç.Aytmatov rus yazıçısıdır?! O türkdür, eləcə də, Nizami”.

**Ş.Nizamzadə Nizami Gəncəvini dindən ayıranlarla razı olmadığını bildirib. Lakin onu tamamilə islam dininə bağlamağı da düzgün hesab etmir:** ”İngilis filosofu Frensis Bekonun ”Dahilər” seriyasında Firdovsi, Homer, Nizami, Nəvai, Şekspirin adını çəkir və bildirir ki, beş dahi, dahilərin dahisidir.

Onlardan biri yunan, biri fars, biri ingilis, biri də türk ədəbiyyatının nümayəndəsidir. Bəşəriyyət insanın mənəvi cəhətinə, təkamülünə yardım edən bütün suallara Nizaminin əsərlərində cavab tapmaq olar.

Nizami türk bədii təxəyyülünün dahisidir. XIX əsrə qədər Şərq ədəbiyyatında ”sənin, mənim” anlayışı olmayıb. Şərq ədəbiyyatı və yunan xalqlarını birləşdirən kontekst var idi. Bu konteksti yaradanlardan biri də Nizami olub.

Məncə, onu daha qlobal şəkildə öyrənmək üçün böyük tədqiqatlar aparan mərkəzin yaradılmasına ehtiyac var. Cənab Prezidentin də sərəncamı məhz buna xidmət edir”.

**Aygün Tahirqızı**

## İslam dünyasının paytaxtı olmalıdır

### Rasim Balayev İCESCO-nun baş direktorunun təklifini qiymətləndirib




**Xəbər verdiyimiz kimi İCESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikbu Şuşanın islam dünyasının paytaxtı adlandırılması barədə açıqlama verib.**

O, yanvarın 14-də keçirilən tədbirdə məsələ ilə bağlı bunları söyləyib: ”Təklif etdik ki, Şuşa islam dünyasının paytaxtı elan olunsun. Hesab edirəm ki, bu, yaxın vaxtlarda baş tutacaq”.

Şübhəsiz ki, Şuşa hər gözəl ada layiqdir. Həm Azərbaycan mədəniyyətinin, həm də islam dünyasının paytaxtı titulu məhz Şuşaya yaraşır.

**”Şərq”lə söhbətləşən Xalq artisti Rasim Balayev də İCESCO-nun Şuşayla bağlı təklifini yüksək qiymətləndirib. Sənətkar bunun xoş xəbər olduğunu deyib:** ”Biz fəxr etməliyik. Hər halda bununla bağlı beynəlxalq tədbirlər də təşkil olunacaq. Bir neçə il öncə ağlımıza gəlməzdi ki, Şuşa azad ediləcək və biz orda keçirilən tədbirlər haqqında düşünəcəyik. Bu gün də prezident ailəsi ilə birgə Şuşaya səfər etdi. Baxıb sevindim, qürur duydum. Bəlkə də bütün bunları yaşayacağımıza inanmazdıq. Məsələn, mən sonuncu dəfə 1989-cu ildə Şuşada olmuşam. İllər ötüb. 28 ildir Şuşa işğalda idi. İstəməyə-istəməyə onun yoxluğuna alışmışdıq. İndi isə Şuşayla bağlı layihələri müzakirə edirik. Dediyim ki, yaxşı addımdır. İslam dünyasının paytaxtı böyük addır. Müsbət dəyərləndirirəm”.

**Samirə Ərəbova**



## Fatimə aparıcılığa başlayır

**Rəqqasə Fatimə Fətəliyeva aparıcılığa başlayır.**

Sənətçi ”Space” telekanalında işə başlayıb.

Fatimə həftənin şənbə və bazar günü səhər proqramı ilə tamaşaçıların qarşısına çıxacaq.

## Mikayıl "Space"dən getdi



**Aparıcı Mikayıl Güləddinoğlunun ”Space”də yayımlanan ”Sevimli mahnı” proqramının yayımı dayandırılıb.**

Axşam.az-ın əldə etdiyi məlumata görə, aparıcı kanaldakı işindən uzaqlaşdırılıb. Onun verilişi də artıq bir müddətdir efirə getmir.

*Qeyd edək ki, Mikayıl 10 ilə yaxındır ”Space” telekanalında çalışırdı.*

# 300 manatdan 500 manatadək cəriməsi var

## Hərbi geyimi qanunsuz daşıyanlara qarşı tədbirlər görülür



**Vətən müharibəsi dövründə səfərbərlik üzrə hərbi xidmətə çağırılmış və səfərbərlikdən tərxis edilmiş şəxslər, eləcə də bəzi vətəndaşların hərbi geyim formasını daşıma hüququna malik olmadığı halda bu geyimdən istifadə etməsi hallarının qarşısını almaq məqsədilə Müdafiə Nazirliyinin Hərbi polis bölmələri Bakı Qarnizonu və digər qarnizonlarda reydlər keçirir.**

Bu barədə ”Şərq”ə Müdafiə Nazirliyindən bildirilib.

Nazirlik bildirir ki, bəzi vətəndaşlar tərəfindən hərbi geyim formasını daşıma hüququnun pozulması müvafiq qanunvericiliyə ziddir.

”Qeyd edək ki, hərbi geyim formasının daşınması ”Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında” Əsasnamə və ”Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 25 iyun tarixli Fərmanı ilə tənzimlənir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 534-cü maddəsinə əsasən hərbi geyim formasını qanunsuz daşımağa görə inzibati xətanın obyekti olmuş hərbi geyim forması müsadirə edilməklə 300 manatdan 500 manatadək cərimə edilir.

Hərbi geyim formasını daşımaq hüququ olmayan şəxsləri hərbi geyim formasından istifadə etməməyə çağırırıq”, - deyə MN-nin məlumatında qeyd edilir.

**Aynurə**



## Universitetlər tərəfindən onlayn kitabxanaların yaradılması vacibdir

**Universitetlər tərəfindən onlayn kitabxanaların yaradılması vacib məsələdir.**

Trend-in məlumatına görə, bunu Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli deyib. N.Məmmədli qeyd edib ki, bir sıra universitetlərin onlayn kitabxanası var: ”Lakin Azərbaycan dilində akademik nəşrlərimizin də sayı bir o qədər çox deyil. Onların onlayna keçirilməsi aktual məsələdir. Söhbət təkcə kitabxanadan getmir. Universitetlərin hər hansı onlayn resursa çıxışından söhbət gedirsə, bu resurslara çıxış üçün özlərinin platformaları var. Onların imkanları var ki, dərs vaxtı mövcud fənnin kabinetində resursları yerləşdirə bilərlər. Artıq bir sıra universitetlərdə fənn kabinetində onlyan resurslardan istifadə edilir”.

## Gələcəkdə yaşlı insanlar da koronavirusu yüngül keçirəcək



**Koronavirusun məlum dörd mutasiyasına dair məlumatların təhlilinə əsasən amerikalı alimlər COVID-19-un yaxın on ildə necə inkişaf edəcəyini hesablayıb.**

Bu müddətdə SARS-CoV-2-nin endemik olacağı (müəyyən bölgələr üçün xarakterik olacağı) bildirilib. Uşaqlıqda yüngül xəstəlikdən qazanılmış immunitet isə ömür boyu qalacaq, suçiçəyində olduğu kimi. Tədqiqatın nəticələri "Science" jurnalında dərc edilib.

Tədqiqatçılar qeyd edib ki, SARS-CoV-2 endemik olduqda ilk infeksiya üç-beş yaş arasında baş verəcək, xəstəlik isə yüngül əlamətlərlə davam edəcək. Gələcəkdə yaşlı insanlar da xəstəliyi yüngül keçirəcək, çünki uşaqlıqda meydana gələn antikorlar onları immunitet qoruması ilə təmin edəcək.(publika.az)

Alimlər peyvəndi müəyyən yaş qrupları üçün daha uzun müddət saxlayaraq onun mərhələli şəkildə ləğv edilməli olduğuna inanırlar. Vaksinasiyanın uşaqlara və ya yaşlılara edilməli olub-olmadığını isə xəstəliyin inkişaf dinamikasının təhlilinə əsasən söyləmək mümkün olacaq.

# Pandemiyadan sonra dünyanı gözləyən təhlükə

## Ürək-damar xəstəliklərinin artacaq



**Türkiyəli kardioloq, professor Cengiz Köksal pandemiyadan sonra ürək-damar xəstəliklərinin artacağını deyib. Professor bunu koronavirus qorxusu ilə əlaqələndirib. O bildirib ki, çox ciddi şikayətləri olsa da, xəstələr həkimə müraciət etməkdən imtina edirlər:**

"Ürək xəstələri COVID-19 qorxusu ilə həkimə getmir. Ən təhlükəlisi heç bir əlaməti olmayan infarktdır. Pandemiyadan sonra ürək çatışmazlığında partlayış ola bilər. Bu xəstələrin böyük hissəsinin ürək transplantasiyasından başqa şansı qalmayacaq. Laxtalanmaya səbəb olan ciddi damar tıxanması da risklidir. Bu, qəfil ölümlərin başlıca səbəbidir.

Ürək əməliyyatlarının sayı azalsa da, xəstələr haqqında eyni fikri deyə bilmərik. Pandemiyadan sonra ciddi ürək çatışmazlığı olan xəstə qrupları ilə qarşı-qarşıya qalacağıq. Klinikalar təngənəfəslik şikayətləri ilə gələn xəstələrlə dolacaq. Elə xəstələr var ki, fərqində olmadan infarkt keçirir. Bu da sağalmaz problemlərə yol açır ki, onları əməliyyat etmək olmaz.

Odur ki, belə xəstələrə daha diqqətli olmağı tövsiyə edirəm. Sinədə ağrı varsa, təngənəfəslik hiss edirsinizsə, tərləyirsinizsə, hərəkət edəndə sinədə ağrılar olursa, həkimə müraciət edin. Bunlar qəfil üzə çıxmış ürək problemləridir. Eyni zamanda ayaqda şişkinliyin olması damarlarda laxtalanmaya işarə edir.(publika.az) Barmaqların göyərməsi də bəzən ürək xəstəliklərinin ilkin simptomları ola bilir".



# Çənə oynaqlarının xəstəlikləri

## Bəzən diş ağrıları altında digər xəstəliklər "maskalanır"

Diş ağrısı sinir sisteminə təsir edən ağrılardan biridir. Peşəkar stamotoloji yardım ala bilmədiyimiz halda, məsələn, gecə, şəhərdən kənar yerlərdə diş ağrısı ilə mübarizə aparmaq lazım gəlir. Bu zaman ev şəraitində müxtəlif üsullardan istifadə etmək effektiv ola bilər. Hər iki saatdan bir ağzın duz məhlulu ilə qarqara edilməsi diş ağrılarının azalmasında effektiv hesab olunur. Adaçayı otunun dəmləməsi ilə qarqara da təsirli üsullardandır. Dəmləməni 30 saniyə ərzində ağızda xəstə diş tərəfdə saxlamaq lazımdır.

Bundan əlavə digər dəmləmələrdən də istifadə edilə bilər: Bir çay qaşığı adaçayı, bir çay qaşığı çobanyastığı, iki çay qaşığı nanə və iki çay qaşığı palıd qabığı. Həmçinin xarab dişin oyuğuna bir dənə mixək, kamfara spirtində və ya valeryan damcılarında isladılmış steril pambıq qoymaq effektivdir.

Diş ağrısından xilas olmağın ən yaxşı üsulu - keyfiyyətli və müasir diş pastaları ilə dişlərin gündə 2 dəfə düzgün təmizlənməsi və ildə 2 dəfə olmaqla stomatoloqun müayinəsindən keçməsidir.

*Bəs, diş ağrılarının yaranmasının əsas qaynağı nədir?*

**Həkim-stomatoloq Mehman İsmayılov "Şərq"ə bildirib ki, kəskin diş ağrıları dişlərin çürüməsi, infeksiya, qulaq ağrıları və yaxud da çənə travmaları ilə nəticələnir:**

"Çənə və damaq xəstəlikləri, travmalar, dişlərin mexaniki zədələnməsi də ağrılara səbəb ola bilər. Əksər hallarda ağrılar diş ətinin zədələnməsi və ya iltihabı zamanı baş verir. Plomblama texnologiyasının pozulması, diş minasının zədələnməsi, diş boynunun açılması da ağrılar yaradır. Bəzən diş ağrıları altında digər xəstəliklər "maskalanır". Məsələn, çənə oynaqlarının xəstəlikləri zamanı diş ağrısına bənzər bir hiss ola bilər".

**Yeganə Bayramova**

# Dırnaq xəstəliklərinin tam müalicəsi mümkündür

Bu gün cəmiyyətdə dırnaq xəstəliklərinin sayı artmaqdadır. Bu daha çox gənc xanımları narahat edir. Bəs, dırnaq xəstəlikləri müalicə olunurmu?



**Dermatoloq, uzman həkim Mehdi İskəndərli "Şərq"ə açıqlamasında vurğulayıb ki, çox adam düşünür ki, dırnaq xəstəlikləri müalicə edilmir. Lakin bu düzgün fikir deyil:** "Dırnaq xəstəlikləri müalicə edilir. Lakin bu xəstəliyin növündən asılıdır. Bəzi dırnaq xəstəlikləri müalicədən çox onun daxili orqan və sistemlərin patologiyalarına işarə olması önəmlidir.

## Şikayət yarandığı zaman dermatoloq həkimə müraciət olunmalıdır



Çünki dırnaq xəstəliklərinə səbəb olan daxili xəstəliklər aradan qaldırılmasa, dırnaqların düzəlməsi mümkün deyil. Bundan başqa dırnaqlardakı problemlər əgər daxili orqanların xəstəliklərinin aşkar edilməsində rola sahibdirsə, o zaman xəstələr dırnaq şikayəti yarandığı zaman dermatoloq həkimə müraciət etməlidirlər ki, həyati təhlükəli sistem problemləri zamanında aşkar edilsin və lazımi tədbirlər görülsün".

*Onun sözlərinə görə, bəzi dırnaq xəstəlikləri dəri patologiyaları ilə paralel şəkildə yaranır.* Yəni dəri xəstəlikləri yarandığı zaman paralel olaraq ayaq və əl dırnaqları da zədələnə bilər. Məsələn, əl ekzeması xəstəliyi zamanı bütün dırnaqlarda deformasiyalar yarana bilər. Belə olan halda dəri xəstəliyi dırnaqlarla birlikdə müalicə edilir. Dırnaqların göbələk mənşəli xəstəliyi isə ən sıx görülən dırnaq problemlərindən biridir. Bu xəstəliyin tam müalicəsi mümkündür. Həkim deyib ki, dırnağın göbələk infeksiyasını müalicə etmək üçün bəzən aylar lazım olur: "Xəstə səbrli olarsa və müayinələrə zamanında gələrsə bu işi sonuna qədər çatdırmaq mümkündür. Dırnaq xəstəlikləri müalicə edilir lakin, bu sualın cavabı həm də xəstəliyin növündən asılıdır".

**Aynurə Pənahqızı**

# Qiyməti 35 min manatdan başlayır



## Azərbaycanda ucuz qiymətə quraşdırma evlər satılır

**Azərbaycanda nisbətən ucuz qiymətə quraşdırma evlərin satışı başlayıb. Marja xəbər verir ki, belə evləri ölkədə tikinti-quraşdırma ilə məşğul olan şirkətlərdən biri təqdim edir.**

Quraşdırma evlər iki formada - prefabrik və konteyner formasındadır. Prefabrik - öncədən zavodda istehsal edilmiş hazır məhsuldur və Avropada, dünyanın inkişaf etmiş ölkələrində geniş yayılıb, Azərbaycanda da bu tip evlərə maraq artır.

100 kv.m prefabrik ev müştərinin torpaq sahəsində hazırlanır və 45-65 gün ərzində müştəriyə təhvil verilir. Prefabrik evlər monolit beton üzərinə qalvanizə edilmiş profillərlə quraşdırılır. Daha sonra evin divarları fibersement lövhələrlə üzlənir, sonra daş yunu ilə izolyasiya edilir. Evin dam örtüyü metal örtüklər və aksesuarla bağlandıqdan sonra təmir işlərinə start verilir. Daha sonra santexnika, elektrik xətləri, tavan və divar panellərindən istifadə edilərək evin interyer hissəsinin quraşdırılması həyata keçirilir.

100 kv.m evin qiyməti 35 min manatdan başlayır. Ev təmirli şəkildə təhvil verilir. Təmir paketlərinə görə qiymət arta bilir.

Konteyner evlər isə iki formatda hazırlanır. Müştərinin torpaq sahəsində və emalatxanada. Hər iki halda onlar hazır şəkildə yığılırlar. Konteyner evlər dəmir örtüklərdən və ya fibersement örtüklərindən istifadə edilərək 15 gün ərzində hazırlanıb müştəriyə təhvil verilir. Bu ən çox dağlıq ərazilərdə və ya bağ evlərində yaşayan müştərilərimizə təklif olunur. Konteyner evlər modul tiplidir, yəni onları bir müddətdən sonra bir yerdən başqa bir yerə daşımaq mümkündür. Burada müştərinin ziyanı sıfıra bərabərdir. Müştəri bir torpaq sahəsindən digər torpaq sahəsinə yaşadığı evi apara bilir. Prefabrik evdə də bu mümkündür. Sadəcə bu halda müəyyən zaman çərçivəsində prefabrik ev yerindəcə sökülür və digər yerdə yenidən qurulur. Bu da müştəriyə əlavə xərc hesabına başa gəlir.

# Azercell-in dəstəklədiyi məktəblilərdən 2021-ci ildə ilk uğur

## Beynəlxalq Jautıkov Olimpiadasında şagirdlərimiz 15 medal qazanıblar




7-12 yanvar 2021-ci il tarixlərində Qazaxıstanın Almatı şəhərində 17-ci Beynəlxalq Jautıkov Olimpiadasında Azercell-in dəstəyilə ölkəmizi təmsil edən məktəblilərimiz yüksək nəticələr nümayiş etdiriblər. Riyaziyyat, fizika və informatika fənni üzrə təşkil edilən elm yarışında virtual formada iştirak edən komandalarımız ümumilikdə 15 medal qazanıblar.

İnformatika fənni üzrə Azercell-in dəstəyilə bu müsabiqəyə qoşulan məktəblilərimiz 3 medal əldə ediblər. Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Emin Orucov, Bakı şəhəri 269 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Amin Cəlilov və Gəncə şəhəri M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıblar.

Qeyd edək ki, Beynəlxalq İnformatika Olimpiadası başda olmaqla informatika üzrə müxtəlifmiqyaslı beynəlxalq olimpiadalara hazırlıq prosesi "Azercell Telekom" və Azərbaycan Respublikasının Təhsil İnstitutu arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən 2017-ci ildən etibarən "Azercell Telekom" MMC-nin dəstəyi ilə həyata keçirilir. Sözügedən müddətdə məktəblilərimiz Beynəlxalq İnformatika Olimpiadası, Asia Pasifik İnformatika Olimpiadası, Yeniyetmələrin Avropa İnformatika Olimpiadası, İnformatika fənni üzrə Beynəlxalq Payız Turniri, Beynəlxalq Meqapolislər Olimpiadası, Beynəlxalq Jautıkov Olimpiadası və bir çox müsabiqələrdə uğurla çıxış edərək, 1 qızıl, 6 gümüş və 18 bürünc olmaqla ümumilikdə 25 medal əldə ediblər.

Mobil operator gənclərin bilik və bacarıqlarının artırılmasına xidmət edən layihələr çərçivəsində Azərbaycanın müxtəlif bölgələrindən və paytaxt məktəblərindən onlarla şagirdin hazırlıq prosesinə cəlb edilməsinə yardımçı olub. Bütün bu uğurlu nəticələr, qazanılan medallar informatika üzrə istedadlı şagirdlərin aşkar edilməsi və onların dəstəklənməsi üçün təşəbbüslərin real nəticə verdiyini sübut edir.

## 16 yaşlı ata körpəsini silahla öldürdü

### Qızın ailəsi 16 yaşlı atadan şikayətçi olub



**ABŞ-ın Uiskonsin ştatında qətl hadisəsi baş verib.**

Unikal.org bildirir ki, 16 yaşlı ata Loqan Anderson yeni doğulmuş körpəsini silahla iki dəfə atəş açaraq öldürüb. Belə ki, 16 yaşlı yeniyetmə özündən balaca qız dostu ilə münasibət yaşayıb. Yanvarın 5-də dünyaya gələn körpəyə sahib çıxmaq üstündə ailələr arası münaqişə yaranıb. Bu zaman yeniyetmə ata körpəsinə baxacağını bildirib.

Daha sonra ortalıqda görünməyən yeniyetmə körpəsiz dönüb. Qızın ailəsi 16 yaşlı atadan şikayətçi olub. Polislərin axtarışı nəticəsində körpənin cansız bədəni aşkar edilib. Qısa zamanda saxlanılan ata cinayəti etiraf edib. Məhkəmə yeniyetmə ata barəsində cinayət işi açıb.

## Hind polisinin bu fotoşopu gündəm oldu



**Hindistanın Uttar Pradeş əyalətindəki Qoraxpur polisinin sosial media paylaşımı gündəm yaradıb.**

Unikal.org bildirir ki, şübhəli şəxsin polisi tərəfindən tutulduğu anla bağlı paylaşılan fotoşəkildə həm zabitin, həm də şübhəlinin maskasız olduğu görünüb.

Belə ki, polis məcburi maska qadağasına əməl etmədiyinə görə sosial mediada tənqid olunub. Daha sonra polis həmin şəklə fotoşopla özünə və şübhəlinin üzünə maska qoyub.

Paylaşm bu dəfə insanlar tərəfindən gülməli qarşılanaraq sosial mediada izləmə rekordu qırıb.

## İsmayıl 3-cü dəfə evlənir

### Onların artıq evlilik qərarı aldığı iddia olunur



**"Çocuk" serialında rol aldıqdan sonra eşq yaşamağa başlayan İsmayıl Bacıoğlu ilə Merve Çağıranın evlilik qərarı aldığı iddia olunur.**

Eyni evdə yaşayan cütlüyün yaxın zamanda nikah masasına əyləşəcəyi deyilir. Onlar hələlik bu barədə açıqlama verməyib.

*Qeyd edək ki, İsmayıl Bacıoğlu 2 dəfə ailəli olub.*

## Tuğba ərə gedir



**Ötən gün müğənni Tuğba Ekinci kameralara tuş gəlib.**

Türk mətbuatı bildirir ki, Nişantaşı səmtində görüntülənən ifaçının yanında sevgilisi Berk Fenercioğlu da olub. Jurnalistlərin suallarını cavablandıran müğənni şəxsi həyatı ilə bağlı açıqlamalar verib.

"Hazırda münasibətimiz çox yaxşıdır. Yayda Bodrumda tanış olduq. Ailəli kimiyik. Bodrumda birlikdə yaşayırıq" deyə, o, bildirib. Tuğbanın sevgilisi isə "nə vaxt evlənirsiniz" sualına "Hər an hər şey ola bilər. Sürpriz olsun. Əvvəldən açıqlamayaq. Bəlkə, yaxın zamanlarda toyumuz oldu" cavabını verib.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 85



## Messinin xanımı boksla məşğul olur

### Antonella Rokutsa özünə yeni məşğuliyyət tapıb



**İspaniyanın "Barselona" klubunun kapitanı Lionel Messinin həyat yoldaşı Antonella Rokutsa özünə yeni məşğuliyyət tapıb.**

"Report" xəbər verir ki, o, fərdi məşqçinin rəhbərliyi altında boksla məşğul olmağa başlayıb. Rokutsa bu barədə özünün instaqram səhifəsində paylaşım edib.

Argentinalı futbolçunun xanımı bildirib ki, bu idman növü onun xoşuna gəlir.

*Qeyd edək ki, 2017-ci ildən evli olan Messi - Rokutsa cütlüyünün 3 övladı var.*

## Qız çayda selfi çəkərkən öldü

### Cəsəd 22 saat sonra tapılıb



**Selfi çəkərkən bədbəxt hadisə baş verib.**

Hindistanda çayda selfi çəkən qız yoldaşının məsuliyyətsiz davranışına görə canından olub.

Çayın içində selfi çəkən qız yoldaşının onu itələməsi nəticəsində suya düşüb. Onun həyatını xilas etmək mümkün olmayıb. Qızın cəsədi hadisə yerindən 9 mil uzaqda, 22 saat sonra tapılıb.

## Alovlanan avtomobildən çıxa bilmədi

### Keçmiş millət vəkilinin oğlu diri-diri yandı





**Keçmiş millət vəkilinin oğlu yanaraq ölüb.**

Milli.Az haberler-ə istinadla bildirir ki, əlverişsiz hava şəraitinin səbəb olduğu zəncirvari qəzada yanaraq ölən şəxsin keçmiş millət vəkilinin oğlu olduğu məlum olub. Qəza Türkiyənin Ordu şəhərində baş verib.

Türkiyənin Ordu vilayəti üzrə keçmiş millət vəkili Müjdat Koçun oğlu Melih Koç avtomobil qəzasına düşüb. O, qəza zamanı alovlanan avtomobildən çıxa bilməyib, hadisə yerində yanaraq can verib.

*Qeyd edək ki, zəncirvari qəza nəticəsində daha iki nəfər xəsarət alıb.*

## Kainatın ən qədim planeti aşkar edilib



**Amerikalı astronomlar kainatın ən qədim planetini aşkar ediblər.**

Trend bildirir ki, TOI-561b adı verilən planetin yaşının 10 milyard ilə yaxın olduğu hesab edilir.

TOI-561b planeti Yerdən təxminən 1,5 dəfə böyükdür və 280 işıq ili uzaqda yerləşir.



# Qocalar da dinc durmur

## 75 yaşlı qadın 80 yaşlı ərini öldürüb



**Ankaranın Mamak bölgəsində cinayət hadisəsi baş verib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, həyat yoldaşına və əlil qızına şiddət tətbiq etdiyi iddia edilən 80 yaşlı Ali A. 75 yaşlı həyat yoldaşı tərəfindən bıçaqlanaraq öldürülüb. Mamakın Bahçelerüstü məhəlləsində baş verən hadisədə Nimet Akgün əvvəlcə Ali Akgün ilə mübahisə edib. Mübahisə böyüdükdən sonra o Ali Akgünə bıçaqla xəsarət yetirib. Ali Akgünün qonşularının xəbərdarlığından sonra hadisə yerinə gələn sağlamlıq qrupu onun öldüyünü müəyyənləşdirib.

Nimet Akgün və əlil qızı Nurgül Akgün (50) polis bölməsinə aparılıb. Polis bölməsindəki ifadəsində günahını boynuna alan Nimet Akgün: **"Mənə və qızıma qarşı daima şiddət tətbiq edirdi. Dözə bilmədim, ona görə də, öldürdüm"- deyib.**

**Aynurə**

## Model çarəsiz vəziyyətdədir

### Məşhur ad zibil qablarını qarışdırarkən görüntülənib





**Bir zaman dünyaca məşhur model olan Loni Uillison jurnalistlərin obyektinə tuş gəlib.**

Unikal.org xəbər verir ki, Kaliforniya ştatında yaşayan model çarəsiz vəziyyətdədir. Belə ki, o, zibil qutularını qarışdırarkən yaxalanıb. Daha sonra 37 yaşlı Uillison təkərli bir araba ilə bütün əşyalarını özü ilə apardığı görüntülənib.

Bildirək ki, amerikalı aktyor Ceremy Caksonla 2012-ci ildə ailə həyatı quran model iş həyatını buraxmışdı. Lakin bu evlilik 2014-cu ildə sonlandı. Daha sonra əvvəlki kimi ictimaiyyətdə görünməməyə başlayan Uillison, 2018-ci ildə küçələrdə yaşadığı bəlli olub.

*İngiltərənin "The Sun" qəzetinə danışan keçmiş model heç kimdən kömək istəmədiyini bildirib.*



## Canla birlikdədir

### Leotta keçmiş sevgilisini qısqandırmaq istəyir

**Aktyor Can Yaman yenə də şəxsi həyatı ilə gündəmə gəlib.**

Aktyor yeni eşq yaşamağa başladığı italyan sevgilisi Diletta Leotta ilə artıq 5 gündür birlikdə yaşayır.

İtaliya mətbuatının yaydığı məlumata əsasən, Leotta keçmiş sevgilisi Daniel Skardinanı qısqandırmaq üçün Canla birlikdədir.

Dilettanın Danieli hələ də İnstaqram hesabında izləməsi bu xəbərlərin yayılmasına səbəb olub.